

## Prezident "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində

*Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib.*

Səh.3



## Elman Rüstəmovun 10 milyard dollarlıq xətası...


# Unikal

№02 (2087) 14 yanvar 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru


Səh.6



## Məmurlara yeni həbs anonsu

## İki devalvasiya ilə bağlı acı həqiqət bir daha ortaya çıxdı

*Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində bir neçə il əvvəlki devalvasiya qərarı ilə bağlı da danışıb. "Bildiyiniz kimi, bir neçə il bundan əvvəl biz çox ağır bir addımın atılmasına məcbur idik. Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi" deyən ölkə başçısı əlavə edib: "Amma o addımı biz mütləq atmalı idik. Çünki əgər biz bu addımı atmasaydıq, biz bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxardı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi.*

Səh.8

## "Konkret tapşırıqlar verilib ki, xalqa, dövlətə xidmət etmək lazımdır"



*Ana Vətən Partiyasının sədri, Milli Məclisin İntizam Komissiyasının sədr müavini, deputat Fəzail Ağamalı "Unikal" qəzetinə müsahibə verib. O, Prezident İlham Əliyevin son müsahibəsi zamanı toxunduğu məsələlərlə bağlı fikirlərini bölüşüb.*

Səh.4

## Əli Əliyev həbs edildi



*Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev həbs edilib. "Unikal" xəbər verir ki, bu barədə Yasamal Rayon Məhkəməsində qərar elan edilib. Qərara əsasən, Ə. Əliyev barəsində 5 ay həbs cəzası verilib. Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin (DSX) Mi-17 tipli helikopterinin Xızı...*

Səh.2

## Emin Əmirullayev üçün "Qordi düyünü..."



*Sosial şəbəkələrdə, eləcə də yerli mediada "Bakıda direktor şagirdi döydü", "Müəllim şagirdi xəstəxanalıq etdi", "Valideyn direktoru döydü" və s. başlıqlı xəbərlərlə tez-tez qarşılaşırıq. Bu cür xəbərlərə reaksiyalar müxtəlifdir. Kimisi uşaqlara fiziki təzyiq göstərilməsini nəinki problem...*

Səh.10

# Bu şou-biznes əhlini həyatda görsəniz, tanımazsınız...



***Son zamanlar məşhur olan "FaceApp" proqramı sayəsində "Həyatda görsəm, tanımaram" ifadəsini çox səsləndiririk. Çünki hər kəs, ən çox da xanımlar fotolarını bu proqram vasitəsilə dəyişir, üzlərində bir xeyli dəyişiklik edirlər. Nəticədə real görüntüləri ilə sosial şəbəkə paylaşımları arasında "dağlar qədər" fərq olur.***

Elə bizim şou-biznes nümayəndələri də "FaceApp"dan tez-tez istifadə edir, bəzən isə bunu ifrat həddə çatdırırlar.

"Unikal" olay-a istinadən "FaceApp"sevər məşhurların siyahısını təqdim edir.

Əvvəlcə Xalq artisti Məleykə Əsədovanın adını qeyd edək. Məleykə xanım özünü elə dəyişir ki, fotoşop olduğunu görməmək mümkün deyil. Hətta görməsində qüsur olan insanlar belə fotoda "FaceApp"dan istifadə olunduğunu anlayır. Təbii ki, Məleykə xanım real həyatda da gözəldir, amma proqram onu tamam başqa qadın edir. O, hətta ürəyi açıqlıq edib fotoşopunu öz sənət dostları ilə də paylaşır. Məsələn, Nadir Qafarzadənin oğlu Loğmanın toyundan həmkarları Nüşabə Ələsgərli və Təranə Qumralla paylaşdığı fotoda hər üç xanım da "FaceApp"lı idi.

Xalq artisti Aygün Kazımova da zaman-zaman paylaşımlarında sözügedən proqramdan istifadə edir. Hətta onun demək olar hər paylaşımında az da olsa, "FaceApp"ın izləri görünür.

Ötən il çətin günlər yaşayan Xalq artisti Nazpəri Dostəliyeva gec-gec də olsa, fotolarını izləyiciləri ilə bölüşür. Sənətçinin digər həmkarları kimi müxtəlif fotoşop proqramlarından istifadə etməsi diqqətdən qaçmır.

Əməkdar artist Könül Kərimova da fotoşopun nemətlərindən yararlanan sənətçilərdəndir. O, bir müddət əvvəl göy libasda paylaşdığı foto ilə gündəmə bomba kimi düşdü. Hamı Kərimovanın çox dəyişdiyini, hətta gənclik illərindəkindən belə cavan göründüyünü söylədi. Çoxları bunun estetik əməliyyatla ola biləcəyini düşünsə də, əslində Könülün sirri "FaceApp" idi. Buna sübut isə onun zaman-zaman yayılan makiyajsız görüntüləridir.

Əməkdar artist Aybəniz Haşımova nəinki yeni fotolarında, hətta köhnələrdə də "FaceApp"dan istifadə edir. Onun arxiv şəkillərindəki makiyajları, gözlərin böyüyüb parıldaması, dodaqların boya ilə rənglənməsi proqramdan istifadə etdiyinin bariz nümunəsidir. Hətta sənətçi ötən günlərdə paylaşdığı mərhum anasının köhnə şəklində belə fotoşopdan istifadə etmişdi.

"FaceApp" müğənni Nazənin Salayevanın instaqramından da təsirsiz ötüşməyib. O da bir çox şəklini fotoşopdan istifadə edərək paylaşır.

Müğənni Xatirə İslam da "Şopsuz bir günümüz olmasın" deyənlərdəndir. İfaçı demək olar hər şəklini düzəliş olunmuş şəkildə paylaşır. Qaşlar daha da yuxarı qaldırılır, dodaq ölçüsü böyüdülür, burun düzləşdirilir və parlaqlıq verilir.

Müğənni Təranə Qumral da fotoşoplu məşhurlardan biridir. Bu ifaçımız da tez-tez sözügedən proqramdan istifadə edərək foto paylaşır.

Tanınmış aparıcı Afaq Gəncəli də daim efektli, "şop"lu fotoları ilə diqqət çəkir. O da digərləri kimi "FaceApp"dan tez-tez istifadə edir.

Siyahıda ilk sıralarda yazılmalı olanı, sona saxladıq. O fotoşopları ilə ən çox gündəmə gələn məşhurlardandır. Bəlkə də səhifəsində sadə, düzəliş olunmamış fotosunu görə bilməzsiniz. Söhbət hər şəkildə bir başqa insan, hər paylaşımda fərqli qadın görkəmi alan tanınmış aparıcı Nanə Ağamalıyevadan gedir. Onunla bağlı tez-tez fotoşop xəbərlərini oxuyursunuz. Çünki Nanə və "FaceApp"ı bir-birindən ayrı hesab etmək olmur.

# Renka sevgilisindən ayrılıb depressiyaya düşdü

***Rəqqasə Rəna Ağamuradova (Renka) sevgilisindən ayrılıb.***



Renka bu haqda "Deməsəm olmaz" proqramına açıqlamasında deyib. O bildirib ki, Türkiyə vətəndaşı olan bir şəxslə sevgili imiş: "Depressiyadayam, hələ çıxa bilmirəm. Heç nə istəmirəm... Nə çəkilişə getmək, nə də iş görmək istəyirəm. Ürəkağrısıdır... Ayrılası olduq, belə alındı. Bir ildir münasibətdə idik. Mənim işimlə alınmır. Hər zamankı kimi, işimlə əlaqədar şəxsi həyatım alınmır. Nə vaxt karyerama son qoysam, o zaman şəxsi həyatım alınar. Qısqanclıq səbəb oldu. Ayrılmanı ilk o istədi. Gəlib-getmələr çətin idi. Burada yaşamağım və işə çox vaxt ayırmağım ayrılığa gətirdi. Depressiyadan çıxmaq üçün ölkədən getməyi düşünürəm. Görürəm ki, belə yaşamaq mümkün deyil. Həkimlərə müraciət edəcəm. Çox pis durumdayam".



# Aynişan Quliyeva: "Bizi otağa salıblar, çıxmağa icazə vermirlər"

***Avropaya istirahətə yollanan Əməkdar artist Aybəniz Haşımovanın bloger qızı Aynişan Quliyevadan xəbər var.***

Sonuncu dəfə Avstriyanın paytaxtı Vyanadan paylaşım edən blogerin otaq yoldaşında virus aşkarlanıb.

Onun COVID-19 testi müsbət çıxıb. Yoluxan xanımla Aynişana otaqda qalmalarını, çölə çıxmamalarını tapşırıblar. Bu haqda bloger sosial şəbəkə hesabında bildirib. O, video paylaşaraq burada hamının onlardan qorxduğunu bildirib: "Oteldə hamı bizdən qorxur. Bizi otağa salıblar, çıxmağa icazə vermirlər. Gecə çay götürmək üçün aşağı düşdüm. Orada mühafizəçi var idi. Məni görəndə qorxdu".

# Elza ağlını sığortalamaq istəyir

***Dünyada bir sıra maraqlı sığorta növləri mövcuddur. Məsələn, bir çox Dünya ulduzu öz bədən üzvlərini sığortalayıb. Aktrisa Cennifer Lopez elə bu ulduzlara misaldır. Yaxud da gülüşünü sığortalayan Culiya Robertsin adını çəkmək olar.***



Bəs Azərbaycanda bu növ sığorta edən şirkətlər varmı?

"Unikal" olay-a istinadən xəbər verir ki, sözügedən mövzu ilə bağlı İctimai TV-nin "Xəbər Yekun" verilişində süjet yayımlanıb.

Proqrama danışan Əməkdar artist Elza Seyidcahan deyib ki, ağlını və şeirlərini sığortalamaq istəyər. Digər müğənni Fuad Musayev isə səs tellərini sığortalamaq istədiyini bildirib.

Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev bildirib ki, ölkəmizdə bu istiqamətdə işlər zəif inkişaf edib:

"Konkret sayı ilə deyə bilmərik ki, hansı futbolçu ayağını, yaxud da musiqiçi səsini sığortalayıb. Çünki bu sığorta sirri sayılan məsələdir".

# Xatirə əməliyyat olundu

***Müğənni Xatirə İslam plastik əməliyyat edirib.***

Axşam.az-ın əldə etdiyi məlumata görə, əməliyyat bu gün baş tutub. Sənətçi bədənşəkilləndirmə üçün bıçaq altına yatıb və artıq çəkidən xilas olub. O, plastik cərrah Siruz Qoçxaniyə müraciət edib. Bu onun ikinci bədənşəkilləndirmə əməliyyatıdır.

Qeyd edək ki, Xatirə bir neçə ilə əvvəl plastik əməliyyat etdirmiş, sonra yenidən çəki almışdı. İfaçı ikinci dəfə ana olmaq istədiyi üçün müalicə aldığını, dərmanların onu kökəltdiyini bildirmişdi.

# Zakir Həsənov Ali Hərbi Məktəbin şəxsi heyəti ilə görüşüb



***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.***

Bu barədə "Unikal"a Müdagfiə Nazirliyindən məlumat verilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin ərazisindəki abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra hərbi məktəbin klubunda məktəbin zabit və kursantları, həmçinin professor, müəllim heyəti ilə görüş keçirilib.

Tədbirin əvvəlində ümummilli lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Müdafiə naziri çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətini şəxsi heyətin diqqətinə çatdırıb. Müharibə zamanı qardaş Türkiyənin mənəvi və siyasi dəstəyinin vacib rol oynadığı xüsusi vurğulanıb.

Yeni tədris ilinin başlanması münasibətilə şəxsi heyəti təbrik edən nazir Vətən müharibəsində hərbi məktəbin yetirmələrinin qəhrəmanlıq və şücaətlərini yüksək qiymətləndirdiyini qeyd edib.

Müdafiə naziri Azərbaycan Ordusunda yeni texnologiyalardan istifadə olunmaqla aparılan kadr islahatlarının Ordumuzun daha da güclənməsində mühüm rol oynadığını bildirib.

Ali Hərbi Məktəbdə hərbi mütəxəssislərin hazırlıq proqramının Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin hərbi məktəblərində tətbiq olunan proqramlara uyğunlaşdırılmasının Azərbaycan Ordusunda peşəkar zabit kadrlarının hazırlanması istiqamətində atılan mühüm addımlardan biri olduğu qeyd edilib.

Sonra general-polkovnik Z.Həsənov kursantların qayğıları ilə maraqlanıb, onlara tədrisdə və gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda Müdafiə naziri hərbi təhsil sisteminin daha yüksək səviyyədə təşkili üçün müvafiq tapşırıqlar verib.

# Qarabağda daha bir erməni cəsədinin qalıqları tapıldı

***Qarabağ müharibəsində ölmüş və itkin düşmüş erməni hərbçilərin qalıqlarının axtarışı üzrə işlər davam etdirilir.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, axtarış işləri nəticəsində daha 1 nəfərin meyitinin qalıqları aşkarlanıb.

Cəsədin kimliyi məhkəmə-tibbi ekspertizasından sonra məlum olacaq.

Qeyd edək ki, atəşkəs əldə edildikdən sonra tapılan meyit və qalıqların ümumi sayı 1705-dir.

# Dövlət agentliyi gücləndirilmiş iş rejiminə keçdi

***14-15 uanvar tarixlərində ölkə ərazisində gözlənilən qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi gücləndirilmiş iş rejiminə keçib.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) "Unikal"a verilən məlumata görə, dağlıq və dağətəyi ərazilərdə proqnozlaşdırılan qarlı və şaxtalı hava şəraiti nəzərə alınaraq agentlik tərəfindən avtomobil yollarında nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədi ilə qeyd olunan ərazilərdə avtomobil yollarına xidmət göstərən tabeli təşkilatlara gücləndirilmiş iş rejimində fəaliyyət göstərmələri barədə tapşırıq verilib.

# Elman Rüstəmovun 10 milyard dollarlıq xətası...

## İki devalvasiya ilə bağlı acı həqiqət bir daha ortaya çıxdı

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində bir neçə il əvvəlki devalvasiya qərarı ilə bağlı da danışıb. "Bildiyiniz kimi, bir neçə il bundan əvvəl biz çox ağır bir addımın atılmasına məcbur idik. Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi" deyən ölkə başçısı əlavə edib: "Amma o addımı biz mütləq atmalı idik.***

Çünki əgər biz bu addımı atmasaydıq, biz bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxardı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Haradasa 10 milyard dollar. Təxminən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdir. Nəticə etibarilə manatı Mərkəzi Bank sabit saxlaya bilmədi və 10 milyard dollar valyutanı biz itirdik".



Xatırladaq ki, 2015-ci il fevralın 21-də Mərkəzi Bank milli valyutanın devalvasiyasını həyata keçirərək 1 Azərbaycan manatının rəsmi məzənnəsinin 1.05 ABŞ dollarına bərabər olduğunu elan etdi. Həmin il dekabrın 21-də isə 2-ci devalvasiya oldu və 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,55 manat səviyyəsində qərarlaşdı.

Maraqlıdır ki, hər iki devalvasiya qərarından bir neçə gün öncə Mərkəzi Bank rəhbəri Elman Rüstəmov manatın ucuzlaşdırılmayacağını bildirmişdi. Lakin hər dəfə də devalvasiya qaçılmaza çevrilmişdi.

Bəs bu devalvasiyalara səbəb nə idi? Məsələ orasındadır ki, ixracatımızın böyük hissəsini neft və neft məhsulları təşkil edirdi. Neftin dünya bazarlarında kəskin ucuzlaşması (120 USD-dən 25 USD yə qədər) və bu ucuzlaşma fonunda ölkəyə daxil olan xarici valyuta kütləsinin kəskin azalması isə devalvasiyaya gətirib çıxardı. Yəni Mərkəzi Bankın valyuta ehtiyatlarının sürətlə əriməsinin qarşısını atmaq üçün manatı ucuzlaşdırmaqdan başqa yol qalmadı.

Dövlət rəhbərinin yerli telekanallara müsahibəsi zamanı söylədiklərindən isə bir daha aydın olur ki, sözügedən proses 10 milyard dollar valyutanın itirilməsi ilə nəticələnib.

Eyni zamanda görünən odur ki, Elman Rüstəmov və onun rəhbərlik etdiyi Mərkəzi Bank zamanında doğru qərarlar verməyə yubanıb. Həmin qərarlar vaxtında verilsəydi, itirdiyimiz valyutanın həcmi də bu qədər böyük olmazdı.

Bir qədər də dəqiqləşdirək: 2014-cü ilin sosial-iqtisadi yekunları, qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə çıxışı zamanı E.Rüstəmov ölkədə makroiqtisadi sabitliyin tam qorunduğunu fəxarətlə qeyd etmişdi: "Son 10 ildə ən aşağı inflyasiya müşahidə olunmuşdur. İnflyasiya cəmi 1,4 faiz təşkil etmişdir. Bu, əsas ticarət tərəfdaşı olan ölkələrdəki inflyasiyadan təxminən 5 faizdən çox aşağıdır və Azərbaycan iqtisadiyyatına beynəlxalq ticarətdə məlum rəqabət üstünlükləri gətirir".

Baş bankirimiz 2014-cü ildə region ölkələrindəki valyuta böhranlarını misal da çəkmişdi: "Ötən il bir sıra ölkələrdə müəyyən xarici və daxili amillərin təsiri altında əsl valyuta böhranları baş vermişdir. Nəticədə bir sıra milli valyutalar məcburi olaraq ciddi devalvasiyaya uğramışdır. Rus rublu 80 faiz, qazax təngəsi 19 faiz, türkmən manatı 22 faiz, Belarus rublu 17 faiz, Ukrayna qrivnası 90 faiz, türk lirəsi 8 faiz ucuzlaşmışdır. Möhtərəm Prezident, Sizin dəfələrlə qeyd etdiyiniz kimi, manatın məzənnəsi makroiqtisadi və maliyyə sabitliyinin, xüsusilə də sosial sabitliyin vacib amilidir. Sabit məzənnə əhalinin gəlirlərinin, yığımlarının dəyərdən düşməsinin qarşısını alır və korporativ və maliyyə sektorunda sabitliyin təmin olunmasının çox mühüm amilidir. Bir sıra beynəlxalq agentliklər bu yaxınlarda manatı Müstəqil Dövlətlər Birliyi və Şərqi Avropa məkanında ən stabil və etibarlı valyuta kimi tanımış və onun çox müsbət perspektivlərini qeyd etmişlər. 2014-cü ildə qonşu ölkələrdə, bölgədə gedən mürəkkəb proseslərlə bağlı yaranmış psixoloji təzyiqlərə baxmayaraq, vaxtında görülmüş tədbirlər nəticəsində manatın məzənnəsi sabit saxlanılmışdır. Bunun üçün Mərkəzi Bank valyuta bazarının həm nağd, həm də qeyri-nağd seqmentlərində çevik tənzimləmə tədbirləri görmüşdür".

E.Rüstəmovun haqqında bəhs etdiyi "çevik tənzimləmə tədbirlərinin" nədən ibarət olduğunu bilmirik. Onun elə həmin müşavirədəki "Mərkəzi Bankda aparılan stress-testləşmə, simulyasiya modelləri vasitəsilə aparılan hesablamalar göstərir ki, birmənalı olaraq Azərbaycan iqtisadiyyatı həm cari ildə, həm də orta müddətli dövrdə bütün bu risklərə adekvat cavab vermək üçün kifayət qədər imkana və potensiallara malikdir" sözlərinin də həqiqətlə nə qədər örtüşdüyünü söyləmək mümkün deyil. Fakt burasındadır ki, "Cari ildə də manatın sabitliyinin təmini bizim ən öndə olan məqsədlərimizdən biridir və biz bu məqsədin reallaşmasını təmin edəcəyik" söyləyən baş bankirin həmin çıxışından cəmi 40 gün sonra - 2015-ci il fevralın 21-də Mərkəzi Bank manatın məzənnəsini kəskin şəkildə aşağı saldı, ilin sonunda yenidən eyni addımı atdı.

Beləliklə, ortaya acı bir həqiqət çıxdı: ölkənin maliyyə-bank sektoruna faktiki rəhbərlik edən, uzun illər boyu pul-kredit siyasətinin müəyyənləşməsində həlledici söz sahibi olan bir şəxs, necə deyərlər, burnunun ucundan uzağı görə bilməyib. Ya da görüb, lakin susmağa üstünlük verib.

Nəticə isə ortadadır: Azərbaycan 10 milyard dollar valyuta itirdi.

Bütün bunları indi ona görə yazırıq ki, Elman müəllim və rəhbəri olduğu qurum keçmişdəki xətaları təkrarlamasın, bəzi yanlışların ölkəyə çox baha başa gəldiyini unutmasın...

***Toğrul Əliyev***

# Prezident İlham Əliyevdən mühüm məqamların anonsu...

***Prezident İlham Əliyev ilin ilk müsahibəsini verdi. Bu, həm son geosiyasi proseslər, həm sərhəd döyüşləri fonunda, həm də müəyyən mesajların yenilənməsi, yenilərinin çatdırılması baxımından əhəmiyyətlidir. Prezidentin iqtisadi məsələlərdən danışarkən, epizodik toxunduğu iki məsələ müəyyən nəticələr çıxarmağa da imkan verir.***

Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, birinci nəticə odur ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin praktiki olaraq bərpa edilməsidir: sərhədin Zəngilandan Laçına qədər olan hissəsinin bərpa edildiyi, əsas problemin davamlı toqquşmaların yaşandığı Kəlbəcər istiqamətində (Xəzinəvar kəndindən Söyüdlü kəndinə qədər) olduğu haqda məlumatlar var idi, hərçənd, Əliyev bildirdi ki, "biz bu sərhədlərə çıxmalıydıq, bu sərhədi qorumalıydıq və bu gün buna nail olmuşuq - sərhədboyu Arazdan Murov dağına qədər".



Bu o deməkdir ki:
- Cənubdan Şimala qədər bütün istiqamətlərdə Ermənistanın işğal dövründə irəli çəkdiyi sərhəd xətti bərpa edilib və bundan sonrakı mərhələ delimitasiya-demarkasiya işinin həyata keçirilməsidir;
- Delimitasiya-demarkasiya razılaşmasının icrası uzanarsa belə, Azərbaycan faktiki olaraq sərhədə çıxıb;
- Bakının əsas tələbi anklavlarla bağlıdır: Ceyhun Bayramov da ötən ilin sonunda bildirdi ki, "anklavlar məsələsinin həlli delimitasiya prosesində baş verə bilər... Azərbaycanın yanaşması ondan ibarətdir ki, bu proses danışıqlar masasında aparılmalı, hərbçilər arasında hər hansı gərginlik yaradılmamalı, buna imkan verilməməlidir" və bununla İrəvana "məsələ masada həll edilməsə, sahədə həll ediləcək" mesajı verildi;

İkincisi, prezidentin Ağdərə ilə bağlı dedikləridir: Azərbaycanda Ağdərə adlı rayon yoxdur, 1992-ci ildə rayonun ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonlarına daxil edilib və Əliyev də rayondan yox, Ağdərə ərazisini turizm mərkəzinə çevirməkdən, insanların ora qayıtmasını təmin etməkdən bəhs edir və hesab etmək olar ki, burada keçmiş Ağdərə rayonunun hazırda Azərbaycan ordusunun nəzarəti altında olan əraziləri nəzərdə tutulur; hərçənd, prezidentin "Ağdərə" adını xüsusi vurğulaması təsadüfə bənzəmir və burada həm sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə qayıdış mesajı yer alır, həm də həmin ərazilərdə yaşayan ermənilərə "yaxşı həyat" mesajı verilir;

Müsahibənin siyasi hissəsində Prezident bir çox məsələyə açıq mətnlə toxundu, mesajlarla yanaşı, atılacaq addımların da anonsunu verdi.

Yanvar döyüşləri: Əliyev "sona qədər döyüşə bilərəm" mesajını verir və bu, Moskvaya ünvanlanıb;
- Ermənistan Qazaxıstandakı hadisələrdən və KTMT-nin "ilk müdaxilə" presedentindən yararlanmaq istəyir: Rusiya buna imkan verməməlidir;
- Atəşi Əliyevin özü dayandırıb: dayandırmaya, döyüşü davam etdirə də bilərdi, lakin Azərbaycan müharibə istəmir; bu, eyni zamanda, Ermənistan cəmiyyətinə də "son itkilərə və bundan sonra baş verəcəklərə görə məsuliyyəti Paşinyan hakimiyyəti daşıyır" mesajının verilməsidir;

Sülh müqaviləsi üçün vaxt: Prezident sülh sazişinin imzalanması - sərhəd müəyyən edilməsi, qarşılıqlı şəkild ərazi bütövlüyünün tanınması, kommunikasiyanın açılmasına start verilməsi - təklifinin hələ də gündəmdə olduğunu bildirdi və sonda əlavə etdi ki, "qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq".

Bu o deməkdir ki:
- Azərbaycan sülh sazişi üçün Ermənistandan altı ay müddətində cavab gözləyir;
- Altı ay müddətində ilkin olaraq sərhədin delimitasiya və demerkasiyası praktiki mərhələdə başlanmalıdır: Soçi razılaşmasına görə ikitərəfli komissiya yaradılmalıdır və istisna deyil ki, Bakı yaz aylarında - hava şəraitinə uyğun olaraq sərhədin demakrasiyasına start verilməsini planlaşdırır;
- Bu müddətdə Ermənistan tərəfindən gözlənilən cavab verilməsə, Bakı praktiki addımlar ata bilər;

Bu addımların nədən ibarət ola biləcəyini Prezident açmır, lakin istisna deyil ki, Moskvanın təqdim etdiyi sərhəd xəritəsinə uyğun bərpa prosesinə start verilsin və burada əsas məsələ yenə anklavlar olacaq: məsələnin həlli hərbçilərin öhdəsinə buraxıla bilər;

Əliyev vaxt mesajını prosesdə iştirak edən tərəflərə - Rusiya və Avropa İttifaqına da verir.

Laçın dəhlizi və sülhməramlılar: Bakı yola nəzarət edir;

Əliyev bildirdi ki, "Laçın dəhlizi bizim nəzarətimiz altındadır". Ötən il Bakının dəhlizə vizual nəzarəti 4Ö =gücləndirdiyini bilirik, lakin Prezidentin açıqlaması söhbətin təkcə vizual nəzarətdən getmədiyini və Azərbaycanın "dəhlizə praktiki müdaxilə imkanının" olduğunu deməyə əsas verir. Bu o deməkdir ki:
- Azərbaycan dəhlizə nəzarəti əvvəlki dövrlə müqayisədə artırıb;
- Moskvaya "istədiyim vaxt dəhlizə müdaxilə edə bilərəm" mesajı verilir;

Əliyevin sülhməramlıların fəaliyyəti ilə bağlı tənqidinin də hədəfi budur: Azərbaycan sülhməramlıların dəhlizdən istifadə qaydalarını pozduğunu faktlarla sübut edir və Laçın dəhlizində post qurmaq məsələsini aktuallaşdırır; Brüssel razılaşması bu məsələnin mümkünlüyünü önə çıxardı və Bakı praktiki gedişdən öncə atacağı addımın səbəblərini və buna zəmin yaradan əsasları elan edir; və Prezidentin konkret rəqəmlərə əsaslanan çıxışı "görməmişik, bilməmişik" bəhanələrini də öncədən neytrallaşdırmağa hesablanıb;

Zəngəzur dəhlizi: Bakı üçün bu, dəhliz olaraq qalır; mümkündür ki, bunun "dəhliz", yaxud " yol" mənitiqi ilə olması məsələsi infrastukruturun inşasına qədər arxa plana keçirilsin;

Əliyevin Zəngəzur dəhlizi ilə bağlı iki anonsu isə xüsusilə diqqət çəkdi:

Birincisi, dəhliz bütün Zəngəzur bölgəsini əhatə etməlidir;

İkincisi, Bakı qaz və elektrik xətlərinin də bu bölgədən keçməsini istəyir;

Azərbaycan bununla Ermənistana əldə edə biləcəyi iqtisadi dividentləri təqdim edir.

Və Bakının hədəf Zəngəzur bölgəsində iqtisadi rıçaqlarla təsir imkanı əldə etmək, tarixi torpaqlara bu yolla qayıda bilməkdir. Əliyevin ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Zəngəzurdan köçməyə məruz qalan babasının məzarı önündə nə vaxtsa dilə gətirəcəyi sözləri bu kontekstdə xüsusilə maraqlıdır.

***Asif Nərimanlı***

## Baş Prokurorluq sabiq deputatın suçunu təsdiqlədi

***Baş Prokurorluq Milli Məclisin sabiq deputatı, "Ştutqart" şirkətinin sahibi Nəriman Əliyevin Bakının Nərimanov rayonu ərazisində ağacları kəsdirməsi faktı üzər aparılan araşdırmanın ilkin nəticələrini açıqlayıb.***

Qurumun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Qayıbov küçəsi 10C ünvanında qanunsuz olaraq ağacların kəsilməsi ilə bağlı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olan materiallar əsasında Baş prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma başlanılıb.

Bununla əlaqədar prokurorluq əməkdaşları tərəfindən Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşlarının iştirakı ilə qeyd edilən əraziyə baxış keçirilmiş, zəruri şəxslərin izahatları alınmış və xüsusi texnika vasitəsilə torpaq qatı qazılaraq müvafiq nümunələr götürülməklə hazırda da qazıntı işləri davam etdirilir.

Araşdırma zamanı müəyyən edilib ki, qeyd edilən torpaq sahəsində mövcud olmuş sərv və şam cinsli ağaclar qanunsuz olaraq kəsilərək götürülüb.

Hazırda Baş Prokurorluqda araşdırmalar davam edir, nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Xatırladaq ki, Nəriman Əliyev Milli Məclisin IV və V çağırış deputatı olub. Bir neçə gün əvvəl mətbuatda onun Bakıda 37 ağacı kəsdirməsi, işdən çıxan əməkdaşlara isə maaş verməməsi ilə bağlı məlumatlar yayılıb.

## İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi hesabat verdi

***2021-ci il ərzində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ümumilikdə 25 373 vətəndaş müraciəti daxil olub. Müraciətlərin 25 303-ü ərizə, şikayət və təklif xarakterli olmaqla məktub, 70-i isə teleqram vasitəsilə edilib.***

Agentlikdən "Unikal"a bildirilib ki, 3776 müraciət əsasən Bakı, Gəncə və Sumqayıt şəhərləri, Bərdə, Astara, Cəlilabad, Masallı, Abşeron və Lənkəran rayonlarının sakinləri tərəfindən birbaşa olaraq Agentliyə edilib. 21 597 vətəndaş müraciəti isə müvafiq dövlət qurumları tərəfindən baxılması üçün Agentliyə yönləndirilib.

Daxil olan müraciətlərin 11 937-si müayinə və müalicə, 7 289-u əlillik məsələləri, 2 490-ı işə qəbul və əmək münasibətləri, 1 506-sı COVID-19, 897-si dərman vasitələri və tibbi sərflə təminat, 1254-ü isə digər məsələlərlə bağlı mövzuları əhatə edib. 21 775 müraciət cavablandırılıb, digərləri isə icradadır.

Habelə Agentliyin sosial şəbəkələrdəki səhifələrinə ötən il ərzində 26 390 sorğu daxil olub. Sosial şəbəkələrdəki vətəndaşları ən çox maraqlandıran mövzular ailə həkimi seçimi, Xidmətlər Zərfinə daxil olan və olmayan əməliyyatlar, icbari tibbi sığorta haqqı, göndəriş verəqəsinin verilməsi qaydası, vaksinasiya üçün onlayn növbə xidmətindən istifadə və peyvənd, immunitet, əks göstəriş sertifikatlarının əldə edilməsi qaydası və s. olub.

Qeyd edilən müddət ərzində 5916 vətəndaş qəbul edilib. Qəbula gələn vətəndaşlar əsasən əlillik dərəcəsinin təyin edilməsi, icbari tibbi sığortanın tətbiqi, işə qəbul və əmək münasibətləri, müayinə-müalicə, cərrahiyə əməliyyat, COVID-19 və s. məsələlərlə bağlı müraciət ediblər. Vətəndaşların müraciətləri qanunvericiliyin tələblərinə uyğun şəkildə cavablandırılıb və onların həlli istiqamətində zəruri tapşırıqlar verilib. Məlumat üçün bildirək ki, vətəndaş qəbulu ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejiminin qayda və tələblərinə uyğun keçirilib.

# İlham Əliyev Ukraynaya gedir



***Azərbaycan Prezidenti İlham Əliyev Ukraynaya işgüzar səfər edəcək.***

”Unikal” xəbər verir ki, bu barədə Ukrayna dövlət başçısının Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, yanvarın 14-də Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski arasında görüş baş tutacaq.

# Baş nazir qərar imzaladı



***Mədəniyyət Nazirliyinin tabeliyində olan Respublika Atçılıq Turizm və Milli Atüstü Oyunlar Mərkəzi ştat vahidləri və ona məxsus əmlakla birlikdə Dövlət Sərhəd Xidmətinin tabeliyinə verilib.***

“Unikal”ın məlumatına görə, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

# Ərdoğandan Ermənistana ÇAĞIRIŞ



***”Azərbaycanın işğaldan azad edilməsi ilə biz Qafqazda yeni dövrə qədəm qoyduq”.***

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa İttifaqı görüşündə deyib.

”Biz Ermənistanla normallaşma prosesinə başladıq. Atılan addımların nəticə verməsi üçün Ermənistanın fürsətdən istifadə edib Azərbaycanla müsbət əlaqələr qurması vacibdir”, - deyə Ərdoğan vurğulayıb.

# Nazir baş leytenantı yüksək vəzifəyə təyin etdi



***Azərbaycanın Daxili İşlər orqanlarında kadr təyinatı olub.***

Bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, polis baş leytenantı Anar Xankişiyev Quba Rayon Polis Şöbəsinin Qonaqkənd Polis Bölməsinə rəis təyin olunub.

O, bu təyinata qədər Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Bölməsində çalışıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Bu xidmətlərə görə vergi güzəştlərinin müddəti uzadılıb

***Azərbaycanda icbari tibbi sığorta xidmətlərinin göstərilməsinin əlavə dəyər vergisindən (ƏDV) azadolmanın müddəti 2023-cü ilin yanvarın 1-dək uzadılıb.***

“Unikal” xəbər verir ki, bu, Azərbaycan Prezidenti İlham Əliyevin Vergi Məcəlləsinə dəyişiklikləri təsdiq etməsi ilə mümkün olub. Məcəllənin 164.1.51-ci maddəsinə edilmiş dəyişikliyə görə İcbari Tibbi Sığorta Fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi bu ilin sonuna qədər vergidən azad ediləcək.

Qeyd edək ki, adıçəkilən güzəştin müddəti bu ilin yanvarın 1-də bitmişdi. Azərbaycanda ƏDV-nin dərəcəsi 18 % təşkil edir.

# Əli Əliyev həbs edildi

***Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev həbs edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Yasamal Rayon Məhkəməsində qərar elan edilib.

Qərara əsasən, Ə. Əliyev barəsində 5 ay həbs cəzası verilib.

Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin (DSX) Mi-17 tipli helikopterinin Xızı ərazisində qəzaya uğraması nəticəsində yaralanan polkovnik-leytenant Emil Cəfərov və kapitan Ramin Ədilov VİP sədri Ə.Əliyevi xüsusi ittiham qaydasında məhkəməyə veriblər.



Belə ki, zabitlərin şikayətinin motivi partiya sədrinin 2021-ci il dekabrın 9-da “Osmanqızı TV” yutub kanalında çıxışı zamanı helikopter qəzasından sağ çıxmağın mümkünsüzlüyü barəsində ehtimal üzərində səsləndirdiyi fikirlərdir.

Onlar məhkəməyə Ə.Əliyevə qarşı Cinayət Məcəlləsinin 147.1-ci (Böhtan) maddəsinə uyğun olaraq xüsusi ittiham qaydasında şikayət ediblər. Şikayət ərizəsində Ə.Əliyevin 6 ay müddətinə azadlıqdan məhrum edilməsi istənilib.

Xatırladaq ki, DSX-nin hərbi helikopteri noyabrın 30-da Xızı rayonu ərazisində yerləşən “Qaraheybət” aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Nəticədə 14 nəfər şəhid olub, 2 nəfər - polkovnik-leytenant Emil Cəfərov və kapitan Ramin Ədilov yaralanıb.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 352.2 (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda istintaq davam etdirilir.

# Dövlət Xidmətinə 5 avtomobil ayrıldı

***Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə ayrılan xidməti minik avtomobillərinin say həddi artırılıb.***

”Unikal” xəbər verir ki, bu, Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” qərara etdiyi dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə ayrılan xidməti minik avtomobillərinin say həddi 3-dən 8-ə qaldırılıb. Əlavə 5 xidməti minik avtomobili Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinn ərazi və yerli bölmələr üzrə ayrılıb.

# Şeyxülislam Vatikanda Roma Papası ilə görüşdü

***Roma Katolik Kilsəsinin başçısı Zati-müqəddəsləri Papa Fransiskin rəsmi dəvəti ilə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Vatikanda səfərdədir.***

Yanvarın 13-də şeyxülislam Allahşükür Paşazadə ilə Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin təkbətək



görüşü olub.

Sonra Papa Fransisk Azərbaycanın dini konfessiya rəhbərlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycanın Fransada və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov və Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete iştirak ediblər.

# DİM sədrindən abituriyentlərə müraciat

***”Bu dərs ilində buraxılış imtahanlarının ikinci yarımilin ortasında keçirilməsi nəzərdə tutulduğu üçün Azərbaycan dili, riyaziyyat və xarici dil fənlərindən tədrisi həmin dövrə təsadüf edən mövzular proqrama salınmayıb”.***

“Unikal” xəbər verir ki, bu barədə DİM-in Direktorlar Şurasının Sədri Məleykə Abbaszadənin tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün “Abituriyent” jurnalının xüsusi buraxılışında yer alan oxuculara müraciətində bildirilib.

Onun sözlərinə görə, həmin mövzular ali təhsil müəssisələrinə qəbul imtahanı proqramlarına daxil ediləcək.

DİM sədri onu da deyib ki, buraxılış imtahanlarının elmi-statistik təhlilləri həm 9, həm də 11-ci siniflər üzrə keçirilmiş buraxılış imtahanlarında tətbiq olunan imtahan modellərinin fənn kurikulumlarının tələblərinə və dərsliklərin məzmununa tam uyğun olduğunu təsdiq edir: ”Bu il də buraxılış imtahanları mövcud qaydalar əsasında fənn kurikulumlarının tələblərinə uyğun keçiriləcək. Məlumat üçün bildiririk ki, bilik və bacarıqlar müvafiq fənn kurikulumlarına uyğun olaraq aşağı siniflərdən etibarən öyrədilir və formalaşdırılır. 1-ci sinifdən 11-ci sinifədək ayrı-ayrı fənlər, o cümlədən tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə kurikulumların müəyyən etdiyi məzmun xətləri dəyişmir, tələbləri isə sadədən mürəkkəbə doğru dəyişir. Tədris proqramlarına görə xarici dil fənnindən 9-cu sinifdə, tədris dili və riyaziyyat fənləri üzrə isə 11-ci sinifdə dərs ilinin birinci yarımilində əsas bilik və bacarıqlar formalaşmış olur. Qeyd olunanlar nəzərə alınaraq, buraxılış imtahanları dərs ilinin ikinci yarısında istənilən vaxtda keçirilə bilər”.

Məlumat üçün bildirək ki, ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün “Abituriyent” jurnalının xüsusi buraxılışları növbəti həftə ərzində nəşr olunacaq. Jurnalın bu xüsusi buraxılışlarında 9 və 11 illik orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün fənlər üzrə alt standartlar, proqramlar, tapşırıq nümunələri, qiymətləndirmə meyarları və digər zəruri materiallar dərc olunacaq.

# Prezident "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində

***Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə ”Xızı-Abşeron” Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib.***

“Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

-Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Mən şadam ki, bizim bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik. Pandemiyaya qədər Səudiyyə Ərəbistanından gələn turistlərin sayı ildən-ilə artırdı. Ümid edirəm ki, pandemiya başa çatandan sonra biz yenə də Səudiyyə Ərəbistanının vətəndaşlarını, öz qardaşlarımızı Azərbaycanda görəcəyik.

İqtisadi sahədə çox böyük perspektivlər var. Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq. Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bu günə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynamışdır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik.

Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan Akvopao şirkətidir. Şirkət haqqında çox danışmaq olar, təkcə onu qeyd etməliyəm ki, bu, enerji sahəsində dünyanın ən böyük şirkətidir. Mənə verilən məlumata görə, şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Yəni, təsəvvür etmək o qədər də çətin deyil və şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.

Əlbəttə ki, burada bizim ikitərəfli dövlətlərarası əlaqələrimizin rolu çox böyükdür, eyni zamanda, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik - bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır. Bir də ki, Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi artıq uzun illərdirki icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə, Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib, bu qərarı qəbul edib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq.



Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər.

Onu da bildirməliyəm ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan “Yaşıl gündəliyi” də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini “yaşıl enerji” zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı bu stansiyanın açılışına, ümid edirəm, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dediyim kimi, yaxın gələcəkdə bu stansiyanın açılışını birlikdə qeyd edək. Sağ olun.

Sonra Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud çıxış edib.

Daha sonra Prezident İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Əl-Səud stansiyanın təməlini qoyublar.

***İnformasiya şöbəsi***

# “Konkret tapşırıqlar verilib ki, xalqa, dövlətə xidmət etmək lazımdır”

## Fəzail Ağamalı: “Nəticə çıxarmayanlar öz sələfləri kimi ömürlərinin müəyyən hissəsini dəmir barmaqlıqlar arasında keçirməli olacaqlar”

***Ana Vətən Partiyasının sədri, Milli Məclisin İntizam Komissiyasının sədr müavini, deputat Fəzail Ağamalı ”Unikal” qəzetinə müsahibə verib. O, Prezident İlham Əliyevin son müsahibəsi zamanı toxunduğu məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***-Bu günlərdə dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbçimiz şəhid oldu. Ötən gün Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Ermənistana xəbərdarlıq etdi. Bundan sonra da belə cəhdlərin olacağı istisna deyil. Ermənistan tərəfinin bu təxribatlarının məqsədi nədir?***

-Ermənistan çox anormal bir ölkə, qeyri-ciddi bir dövlətdir. Bu dövlət Rusiyanın geosiyasi maraqlarına xidmət edən saxta bir qurumdur. Yarandığından bu günə qədər konkret hədəfi olmayan, sadəcə saxta miflər üzərində araşdırmalar aparan, bunu yaradan və özünü ona inandıran bir cəmiyyətin bu cür dövləti olmalıdır.

Sərhəddə baş verən hadisələrdə şəhidimizin olması bizi üzür. Bununla yanaşı, qarşı tərəf cavabını bir neçə dəfə artıq aldı. Ermənilər daha çox itkilərə məruz qalır. Bütün bunlar erməni cəmiyyətinə ciddi psixoloji yük yaradır və onları daha ağır duruma salır. Bu zaman onlar Ermənistan deyilən qurama bir ölkədə yaşayıb-yaşamamaq haqqında düşünməyə başlayırlar. Bu təxribatların qarşısını almaq üçün Azərbaycan Müdafiə Nazirliyi yüksək peşəkarlıqla öz üzərinə düşən vəzifəni yerinə yetirir. Qəhrəman əsgər və zabitlərimiz Vətəni qoruyur, ermənilərə ciddi zərbələr vururlar. Düşmənə tarixin dərslərini veririk. Bu təxribatlar var və bundan sonra da davam edəcək. Dövlət başçısı çıxışında bildirdi ki, Ermənistan sülh sazişi bağlamayacaqsa, ərazimizi tanımayacaqsa, olmasın. Biz də onların ərazisini tanımayacayıq. Təbii ki, bunun arxasında ciddi məqamlar dayanır. Biz zamanla öz tarixi torpaqlarımızı geriyə alaraq gedəcəyik. Dünya artıq Ermənistanı tanıyır. Onların vandallığı, faşizmi haqqında kifayət qədər məlumatlıdır. Dünya ölkələri Ermənistanın saxta göz yaşlarına inanmır. Cənab Prezidentin dediyi fikirlər, verdiyi mesajlar və əhəmiyyətli sözlər bizdə kifayət qədər nikbin əhval-ruhiyyə doğurur. Narahat olmağa heç bir əsas yoxdur.

***-Prezident müsahibəsi zamanı məmurlara sərt xəbərdarlıq etdi. Dövlət başçısı bildirib: ”Əfsuslar olsun, bəzi hallarda kadr dəyişikliyi vəziyyətin müsbətə doğru dəyişməsinə aparmır. Çünki yeni kadr təyin edilir, müəyyən müddət ərzində özünü verilmiş təlimatlara uyğun aparır, amma sonra vaxt keçdikcə, necə deyərlər, köhnə, əyri yola gedir”. Necə düşünürsüz, bu il kadr və struktur islahatları davam edəcəkmi?***

-Cənab Prezident hər zaman dediyi sözü konkret addımlarla cəmiyyətə təqdim edir. Prezident İlham Əliyevin idarəçilik sistemində sözlə əməlin vəhdəti hər zaman



özünü göstərib. Dövlət başçısının ötən gün yerli telekanallara verdiyi müsahibə zamanı dediyi fikirlər bizə əsas verir ki, yaxın zamanlarda bununla bağlı konkret addımlar atılacaq. Hər birimizi narahat edən odur ki, ölkə rəhbərinin bu qədər qətiyyətli fikirlərindən və xəbərdarlıqlarından sonra yenə də ayrı-ayrı şəxslər qoyulmuş ümumi xətdən kənara çıxır, bir-iki il özünü normal şəkildə göstərib, sonra sələfləri kimi korrupsiya və rüşvətxorluqla məşğul olurlar. Bu çox məyusedici bir vəziyyətdir. Təəccüblü odur ki, həmin şəxslər özlərindən əvvəlkilər barədə həyata keçirilən anti-korrupsiya əməliyyatlarından nəticə çıxarmırlar. Elə bilirlər ki, onların törətdiyi əməllər Prezident İlham Əliyevə bəlli deyil. Dövlət başçısı ötən gün söylədi ki, bəzi məlumatları kütləvi informasiya vasitələrindən oxuyur. Bu gün Azərbaycan cəmiyyəti kifayət qədər şəffafdır, ictimai nəzarət həyata keçirilir. Media tərəfindən ciddi faktlar gündəliyə gətirilir, ictimailəşdirilir. Cənab Prezident bundan xəbər tutan kimi dərhal özünün adekvat addımını atır. Bundan da nəticə çıxarmaq istəməyənlər olur. Öz tamahına sahib çıxa bilmirsənsə, ərizəni yaz və gedib digər işlə məşğul ol. Konkret tapşırıqlar verilib ki, xalqa, dövlətə xidmət etmək lazımdır. Bu xidmətlər təmənnasız olmalıdır. Kimsə xahişlə, güclə, təmənna ilə vəzifəyə qoyulmayıb ki, dövlət, xalq qarşısında xidmət etmək əvəzinə minnət qoysun. Cənab Prezidentin etimadını doğrultmaq, xalqa vicdanla xidmət etmək lazımdır. Buna əməl etməyənlər varsa, növbəti işdən çıxarılanların və onların haqqında cinayət işlərinin açılmasının şahidi olacağıq. Ona görə də bundan nəticə çıxarmaq lazımdır. Nəticə çıxarmayanlar öz sələfləri kimi ömürlərinin müəyyən hissəsini dəmir barmaqlıqlar arasında keçirməli olacaqlar. Bu il ərzində növbəti kadr və struktur islahatlarının olacağını istisna etmirəm.

***-Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində çörəyin bahalaşmasına münasibət bildirdi. Bu günlərdə bildiyiniz kimi, ölkəmizdə un və çörəyin qiyməti bahalaşıb. Bununla yanaşı digər ərzaq məhsullarının qiymətində də artımlar var...***

-Əlbəttə qiymət artımı hər birimizi təəssüfləndirir. Xüsusilə, aztəminatlı ailələrin bu baxımdan problemlər yaşadığını heç kim inkar edə bilməz. Bununla bağlı dövlət tərəfindən konkret addımlar atılır. Dekabr ayının sonlarında Prezident 2022-ci ilin yanvarın 1-də qüvvəyə minən sosial paketi imzaladı. Pensiyalar, minimum əmək haqqı, müavinətlər və s. artırıldı.Bu artımlat bundan sonra da davam edəcək. Unutmaq olmaz ki, çörəyin qiymətinin bahalaşması dünyada gedən proseslərlə birbaşa bağlıdır. Taxıl istehsal edən ölkələr qiyməti artırıblar. Taxıl qıtlığı əmələ gəlib ki, bu da qiymətn artımına səbəb olur. Dəfələrlə belə vəziyyət yarananda dövlət qarşısını almaq üçün subsidiyalar verib. Həmçinin, buğda idxalı əlavə dəyər vergisindən (ƏDV) azad olunub. Pandemiyanın yaratdığı çətinliklər arasında həm də digər ərzaq məhsullarının qiymətində artımlar var. Cəmiyyət bu artımları onda normal qəbul edir ki, süni qiymət artımı olmasın. Belə ki, möhtəkirlər yaranmış situasiyadan istifadə edib daha çox qiymət artırmasın. Hər birimizi narahat edən budur. Un və un məhsullarını istehsal edən, onun satışı ilə məşğul olan bütün müəssisələrin fəaliyyəti ciddi nəzarətə alınmalıdır. Süni qiymət artımlarının olmasına imkan verilməməlidir. Belə olarsa, onlar barəsində ciddi tədbirlər həyata keçirilməlidir. Həmin möhtəkirlər tək cərimələrlə deyil, onlar haqqında cinayət məsuliyyəti də tətbiq olunamlıdır. Bütün bunlar ictimailəşməlidir ki, kimsə möhtəkirliklə məşğul olursa, bilsin ki, ciddi formada cəzalanacaqlar. Müvafiq qurumlar bununla bağlı davamlı olaraq monitorinqlər aparmalı, cəmiyyətə məlumat verilməlidir.

Sonrakı aylarda, növbəti taxıl biçininə qədər ciddi bir vəziyyət yaranarsa, dövlət maliyyə resurslarından istifadə edərək qiymətin artmaması üçün baha qiymətə də olsa, ölkəyə taxıl gətirilməsinə başlamalıdır. Düşünürəm ki, növbəti taxıl yığımında həmin dövrün qiymətlərinə uyğun olaraq bir neçə illik taxıl ehtiyatını yaratmalıyıq. Ona görə ki, bu cür fors-major vəziyyətdə itkilərlə üzləşməyək. Taxılın və digər idxal edilən ərzaq məhsullarının ehtiyatını yaratmaq lazımdır. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərindən sonra kənd təsərrüfatının inkişafı geniş vüsət alacaq. Azərbaycanın təbii şəraiti elədir ki, özünün taxıla olan ehtiyacını ödəyə bilmir. Bu baxımdan idxaldan asılı vəziyyətdəyik. Bu da obyektivdir. Gələcəkdə taxıl ehtiyatına daha ciddi yanaşmalı, lazım gələrsə, ölkənin maliyyə imkanlarından istifadə edərək taxıl ehiyatına diqqəti artırmalıyıq ki, belə xoşagəlməz vəziyyətlərin qarşısını ala bilək.

***Anar Kəlbiyev***

# Ziya Məmmədovun oğlu hara "yoxa çıxıb"...

## Anar Məmmədov üç ilə yaxındır ki, Azərbaycana gəlmir

***Atasının postunu itirməsindən sonra tədricən ortalıqdan çəkilən sabiq nazir oğlundan bir müddətdir ki, ümumiyyətlə xəbər yoxdur. Onun adı sonuncu dəfə ötən ilin sentyabrında gündəmə gəlmişdi. Söhbət Anar Məmmədovdan gedir. Keçmiş "nəqliyyat şefi" Ziya Məmmədovun oğlu barədə ən son xəbər 2021-ci ilin sentyabrında yayılıb.***

Həmin vaxt bildirilirdi ki, Anar Məmmədov Azərbaycan Qolf Federasiyasının prezidenti vəzifəsindən rəsmən istefa verib. Həmin vaxt Gənclər və İdman Nazirliyinin sözügedən idman federasiyası üzrə kuratoru Fikrət Hüseynov demişdi ki, hazırda həmin qurumun rəhbərliyi yoxdur: "Ona görə də fəaliyyəti tam dayandırılıb". 2013-ci ilin oktyabrın 2-də mərhum Gənclər və İdman naziri Azad Rəhimovun iştirakı ilə açılan Azərbaycan Qolf Federasiyasının inzibati binası və Qolf Akademiyasının ərazisi artıq özəl tikinti şirkətinə satılıb, hazırda orada yaşayış binası tikilir. Halbuki Anar Məmmədov bu federasiyaya prezident seçilərkən onun ciddi hədəfləri vardı. Sabiq nazir oğlu müsahibələrin birində etiraf etmişdi ki, onun üçün qolf idman deyil, həyat tərzi, elitar oyun, ənənəvi dəyərlərə üstünlük verənlərin oyunudur. Bu səbəbdən də o, məqsədini "peşəkar və həvəskar milli oyunçular nəslini yetişdirmək, qolfu azərbaycanlıların gündəlik həyatlarının bir hissəsinə çevirmək" kimi müəyyənləşdirmişdi. Yetərincə qısa zaman ərzində Qubada ilk Milli Qolf Klubu yaradılmış, Bakıda gənclərin təlim keçdiyi, məktəblərdə müxtəlif tədbirlər aparan Qolf Akademiyası təsis edilmişdi. Sonradan isə Qolf Federasiyası yaradıldı və sabiq nazir oğlu bu federasiyanın prezidenti seçildi. Mətbuatda Məmmədov və onun federasiyasının hədəfləri barədə təbliğat yazıları bir-birini əzvələməyə başladı. Lakin nə vaxt ki, Z.Məmmədov nazir postunu itirdi, onun özü və nəhəng biznes imperiyası kimi övladı üçün də çətin günlər başladı. Hazırda Anar Məmmədov barədə çox az məlumat var. Bircə o bəllidir ki, eks-nazirin oğlu Əsasən İngiltərədə, Londonda yaşayır və atasının korrupsiya pulları hesabına ölkədən kənarda yaratdığı şirkətlərin idarəçiliyi ilə məşğul olur. O da maraqlıdır ki, oğul Məmmədov son iki ildə Azərbaycana ümumiyyətlə qədəm qoymayıb. Sadəcə, üç il öncə Bakıda keçirilən "Arsenal"-"Çelsi" oyunundan özünün İnstaqram səhifəsində video paylaşıb. Həmin vaxt videodan belə anlaşılırdı ki, sabiq nazir oğlu Bakıdadır. Buna qədər Anar Məmmədovun ölkəyə qayıdışının mümkün olmayacağı haqda xəbərlər dolaşırdı. Bildirilirdi ki, A.Məmmədovun Bakıdakı fəaliyyəti arzuolunmazdır, onun ölkəyə gəlməsi də bu baxımdan baş tutmaya bilər. Lakin məlum video bu iddianın ya yanlış olduğunu, ya da ona münasibətin dəyişdiyini göstərirdi. Sabiq nazir oğlunun vəkili Nihat Axundov həmin vaxt bildirmişdi ki, müvəkkili Azərbaycanda olduğunu təsdiqləmişdi. Lakin sonradan A.Məmmədov bir daha Azərbaycana gəlmədi. Bunun səbəbi isə müəmmalı olduğu qədər maraq doğurur. Yeri gəlmişkən, sabiq nazir oğlu atası vəzifəsini itirməzdən çox əvvəl ölkədən getmişdi. Onun Böyük Britaniyanın paytaxtı Londonda məskunlaşdığı haqda xəbərlər vardı. Həmin dövrdə Məmmədovların "ZQAN" adı ilə qurduqları, sonradan "Garant"a çevrilmiş holdinqlərinə daxil olan şirkətlər nəzarətlərindən çıxarılırdı. Hətta 2018-ci ildə Anar Məmmədovun Bakıdakı bir neçə daşınmaz əmlakı üzərinə həbs də qoyulmuşdu. Məlum olmuşdu ki, Anar Məmmədov və şirkətlərinin kredit borcu var. Həmin dövrdə məhkəmədə cavabdeh qismində "Garant İnşaat Sənaye" MMC, "Garant Holding" MMC, "Azpod" MMC və Anar Ziya oğlu Məmmədovun adları keçirdi. Hazırda isə sabiq "nəqliyyat şefi"nin biznes imperiyası öz qüdrətini itirib, onun yalnız xaricdəki biznesinin hələ də güclü olduğu deyilir. Bu işlə də birbaşa Anar Məmmədovun ilgiləndiyi deyilir. Atası isə Ucar rayonunda, doğulduğu kənddəki imarətində yaşayır və öz sözlərinə görə, əkinçiliklə, heyvandarlıqla məşğuldur. Lakin bir çoxları Z.Məmmədovun həmin sözlərini gözdən pərdə asmaq cəhdi kimi qiymətləndirir və belə düşünürlər ki, keçmiş "nəqliyyat şefi" bununla maddi durumunun yaxşı olmadığı təəssüratı yaradır. Belə bir təəssürat yaratmaq ehtiyacının haradan qaynaqlandığı isə cavabsız suallar arasındadır...



***Sənan Mirzə***

# Baş redaktor cərimələndi – RƏSMİ

***Azərbaycanda jurnalist cərimələnib. Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, qurumun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən aparılan araşdırmalar nəticəsində media nümayəndəsi (baş redaktor) İbişbəyli Fikrət Fəraməz oğlunun Şuşa şəhərinin Xankəndidən atəşə tutulması barədə həqiqətə uyğun olmayan məlumatı özünə məxsus "jamaz.info" xəbər saytında yerləşdirməsinə görə 12.01.2022-ci il tarixdə onun barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanmaqla, toplanan materiallar baxılması üçün məhkəməyə göndərilib.***

Qeyd edilib ki, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin eyni tarixli qərarı ilə Fikrət İbişbəyli barəsində 500 manat məbləğində inzibati cərimə tənbehi tətbiq edilib. "Azərbaycan Baş Prokurorluğu media subyektləri və sosial şəbəkə istifadəçilərini bir daha öz fəaliyyətlərində qanunvericiliyin tələblərinə riayət etməyə dəvət etməklə bildirir ki, dəqiqləşdirilməmiş, həqiqətə uyğun olmayan, eləcə də ictimaiyyətdə çaşqınlıq yaratmağa yönəlmiş informasiyaların qərəzli surətdə yayılmasına görə bundan sonra da tərəfimizdən qəti tədbirlər görüləcək", - Mətbuat Xidmətindən bildirilib.

# Ağacların kəsilməsi ilə bağlı şikayət təsdiqini tapmadı

***Şəki şəhəri Ekonom marketin qarşısında ağacların kəsilməsi ilə bağlı Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə daxil olan şikayət yerində araşdırılıb və məlum olub ki, sözügedən ünvanda ağac kəsintisi deyil, təhlükə yaradan bir neçə ağacın budanması həyata keçirilib.***

Odur ki, ağacların kəsilməsi ilə bağlı daxil olan şikayət həqiqəti əks etdirmir. Xidmət rəsmisi Bəhruz Məhəmmədov "Unikal"a bildirib ki, həmin ərazidə fəaliyyət göstərən Kapital Bankın Şəki filialı tərəfindən bankın binasının qarşısında, Ekonom marketin yaxınlığında təhlükə yaradan iri gövdəli və çox hündür bir neçə ağacın budanmasına rəy verilməsi üçün Dövlət Ekoloji Ekspertiza Agentliyinə müraciət olunub və Agentlik tərəfindən insanların həyatına təhlükə yaradan 6 ağacın budanmasına rəy verilib. B.Məhəmmədov yaşıllıqlara qayğı və həssaslıqla yanaşaraq Xidmətə məlumat verən ictimaiyyət nümayəndələrinə göstərdikləri vətəndaşlıq mövqeyinə görə təşəkkürünü bildirib, eyni zamanda ağacların budanmasını kəsilmə kimi təqdim edərək ictimaiyyətdə çaşqınlıq yaratmamalarını xahiş edib.

# Nazirlik jurnalistlərə təlim keçəcək

***Bu gün Kənd Təsərrüfatı Nazirliyi ilin yekunları, dünya taxıl bazarında bahalaşmanın səbəbləri, taxıl bazarının və qiymətlərin konyukturu, Azərbaycanda taxıl istehsalı, taxılla özünü təminat səviyyəsi, özünütəminatın dünya bazarındakı qiymətlərlə əlaqəsi, qlobal iqlim dəyişikliklərinin kənd təsərrüfatına təsiri və digər mövzularda media nümayəndələri üçün təlim və məlumatlandırma sessiyası keçirəcək.***

"Unikal" xəbər verir ki, məlumatlandırma sessiyası Gəncə şəhərində baş tutacaq. Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə, nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov qeyd olunan mövzularda məlumatlandırma aparıb, təlim keçəcəklər. Gəncəyə səfər çərçivəsində təlim iştirakçıları Azərbaycan Dövlət Aqrar Universitetinin kampüsü və universitetdə qış imtahan sessiyasının gedişi ilə tanış olacaqlar. Bundan əlavə, jurnalistlər Biotexnologiya Mərkəzinə, təcrübə tədris təsərrüfatına, Respublika Süni Mayalanma Mərkəzinə baş çəkəcək, ölkəyə gətirilmiş yeni heyvan cinsləri ilə tanış olacaqlar.

# Azərbaycanda 69 yaşlı kişi intihar etdi

**Saatlı rayonunda intihar hadisəsi baş verib.** "Unikal" xəbər verir ki, hadisə Qaranuru kəndində qeydə alınıb. Həmin kəndin sakini, 1953-cü il təvəllüdlü Nəsirov Mirzağa Mirzə oğlu yaşadığı evin həyətində özünü asaraq intihar edib. Faktla bağlı Saatlı rayon prokurorluğunda araşdırma aparılır.

# DYP hava ilə bağlı sürücülərə müraciət edib




***Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi gözlənilən hava şəraiti ilə bağlı sürücülərə müraciət edib.***

İdarədən GUnikal"a daxil olan müraciətdə deyilir: "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, yanvar ayının 13-ü axşamdan şimal-qərb küləyinin güclənəcəyi, havanın yağıntılı olacağı, bəzi yerlərdə sulu qara keçəcəyi, yüksək ərazilərdə qar yağacağı, dağlıq və dağətəyi rayonlarda şaxtalı hava şəraitinə görə yolların buz bağlayacağı bildirilir.

Baş Dövlət Yol Polisi İdarəsi verilən proqnozla əlaqədar sürücülərə müraciət edərək ehtiyatlı olmağı, dağlıq və dağətəyi ərazilərdə sulu qar və qar yağma nəticəsində nəqliyyat vasitələrinin sürüşmə ehtimalının daha çox olmasını nəzərə alaraq şinləri qış mövsümünə uyğun olmayan avtomobillərdən mümkün qədər həmin ərazilərdə istifadə etməməyi, küləkli havaya görə avtomobillərini ağacların, iri reklam lövhələrinin, aşma yaxud qopma ehtimalı olan digər əşyaların yaxınlığında və ya atında saxlamamağı, meteoroloji şəraitə uyğun sürət həddi seçməyi, nəqliyyat vasitələrinin şüşəyuyanları və şüşəsilgəclərinin müəyyən edilmiş rejimdə işləməsini yoxlamağı, həmçinin zərurət olmadan yollarda qəfil manevrlər və kəskin tormozlama hərəkətləri etməməyi xahiş edir".

# Buster doza ilə bağlı əhaliyə çağırış

***Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi buster doza ilə bağlı əhaliyə çağırış edib.***

GUnikal"ın xəbərinə görə, adıçəkilən qurumların birgə məlumatında bildirilib ki, əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub.

"Bu səbəbdən səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici (buster) doza ilə peyvəndləməyə çağırır.

Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına da riayət olunmalıdır. Fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalar, virusun mutasiyasından asılı olmayaraq xəstəlikdən qorunmağın və normal həyata qayıtmağın yeganə yoludur", - birgə məlumatda qeyd olunub.

# Bakıda 11 yaşlı uşaq "patı"dan psixi xəstəyə çevrildi



***Paytaxtda dövlət müəssisəsi və sığınacaqlara yerləşdirilməsinə baxmayaraq dəfələrlə qaçan 11 yaşlı uşaq psixi xəstəyə çevrilib.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə bildirib.

Onun sözlərinə görə, hər gün Nizami metrosu ərazisində 10 manat topladıqdan sonra "patı" istifadə edən azyşalı artıq psixi xəstəlikdən əziyyət çəkir.

Birlik sədri əlavə edib ki, azyaşlı tez bir zamanda ruhi-əsəb xəstəxanasına yerləşdirilməlidir.

# Bakıda gənc qız itkin düşdü

**Bakıda gənc qız itkin düşüb.**

Unikal xəbər verir ki, "Report"un əldə etdiyi məlumata görə, hadisə yanvarın 11-də paytaxtın Sabunçu rayonunun Maştağa-Nardaran massivi, Qayaüstü adlanan ərazisində qeydə alınıb.Belə ki, həmin gün səhər saat 8 radələrində 2005-ci il təvəllüdlü Xədicə Ağayevə yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb.

Faktla bağlı araşdırma aparılır.

# Məmurlara yeni həbs anonsu

## Prezidentin sərt xəbərdarlığı – nəticə çıxarmayanların qandallanması qaçılmazdır

***Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi zamanı məmurlara sərt xəbərdarlıq edib. Ölkə başçısı bildirib ki, son illər ərzində göstərilən qətiyyət və sözlə əməl arasında olan vəhdət hər kəs üçün dərs olmalıdır: "Çünki mən dəfələrlə dövlət məmurlarına həm rəsmi qaydada, həm də görüşlər zamanı, onları vəzifəyə təyin edərkən təlimat verirdim ki, korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalıdır və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq".***

Dövlət başçısı deyib ki, ən yüksək vəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar: "Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq.

Xüsusilə bu əyri yola gedən insanların xidmətləri daha çox "ayı xidməti"nə bənzəyir. Ona görə hesab edirəm ki, bunu hər kəs artıq görüb və bilib. Ona görə bizim addımlarımız çox sərt olacaq, cəzalarımız da çox sərt olacaq".

Prezident kadr dəyişiklikləri barədə də danışıb: "Əfsuslar olsun, bəzi hallarda kadr dəyişikliyi vəziyyətin müsbətə doğru dəyişməsinə aparmır. Çünki yeni kadr təyin edilir, müəyyən müddət ərzində özünü verilmiş təlimatlara uyğun aparır, amma sonra vaxt keçdikcə, necə deyərlər, köhnə, əyri yola gedir. Ona görə burada cəza tədbirləri ilə yanaşı, kadrların düzgün seçilməsi məsələsi öz rolunu oynamalıdır".

Dövlət başçısı ictimai nəzarətin önəminə də diqqət çəkib: "Eyni zamanda, biz cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin.

İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin".

Ekspertlər ölkə başçısının məmurlara növbəti və sərt xəbərdarlığını yeni həbslərin anonsu kimi də qiymətləndirirlər. Xüsusilə son iki ildə Azərbaycanda nazir, nazir müavini, icra hakimiyyəti başçısı kimi kifayət qədər yüksək post tutmuş şəxslər saxlanılıb, onların bir çoxu hələ də dəmir barmaqlıqlar arxasındadır. Həmin məmurların vəzifədə olduqları müddətdə külli miqdarda dövlət vəsaitini mənimsədikləri, böyük məbləğdə pulları rüşvət kimi aldıqları ortaya çıxıb.

Son aylarda məmur həbslərinin bir qədər səngidiyi müşahidə olunurdu. Ekspertlərin fikrincə, ölkə başçısının son çıxışı belə həbslərin davam edəcəyinin ifadəsidir. Prezident əyri yola gedən post sahiblərinin bundan sonra da sərt şəkildə cəzalandırılacağını söyləməklə korrupsiya və rüşvətə bulaşan vəzifəlilərə qarşı güzəştsiz davranılacağını bir daha elan edib. Bu isə eyni zamanda yeni məmur həbslərinin anonsu kimi qiymətləndirilə bilər.

Prezidentin çıxışında daha bir diqqətçəkən məqam onun yeni kadrlarla bağlı söylədikləridir. Ölkə rəhbəri həmin kadrların bəzilərinin göstərilən etimadı doğrultmadığını təəssüflə bildirib. Ekspertlərin fikrincə, bu onu göstərir ki, nazir, icra başçısı, komitə sədri kimi önəmli postlara gətirilən gənc kadrlar dövlət başçısının sözlərindən ciddi nəticə çıxarmalıdırlar. "Belə kadrlar bəzən düşünürlər ki, onlara yüksək etimad göstərilibsə, toxunulmazdırlar, istədikləri addımı ata, qərarları verə bilərlər, buna görə isə onlara kimsə "gözün üstə qaşın var" deməyəcək. Bəzi yeni kadrlar hətta "köhnələrin" yolu ilə gedir, zərərli vərdişlərə mübtəla olur, şəffaf, yeni dövrün çağırışlarına uyğun fəlaiyyət göstərmək əvəzinə özlərindən əvvəl işləmiş şəxslərin səhvlərini təkrarlayırlar. Prezident çıxışında belələrinə də mesaj göndərdi, açıq şəkildə söylədi ki, kimsə toxunulmaz deyil, heç kim məsuliyyətdən boyun qaçıra bilməz".



Prezidentin rüşvət və korrupsiya ilə mübarizədə ictimai nəzarətin vacibliyi barədə söylədikləri isə xüsusilə böyük önəm daşıyır. Təəssüf ki, məmur aparatında bir çoxları hələ də ictimai nəzarət anlayışına dırnaqarası yanaşır, mediadakı tənqidlərə dözümsüz münasibət sərgiləyir, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqdan çəkinir, şəffaflıq, hesabatlılıq baxımından günün standartları ilə ayaqlaşmaq istəmirlər.

Belələrinin də ölkə başçısının sözlərini diqqətlə dinləməsində, oxumasında və nəticə çıxarmasında fayda var.

Yaxın illərin təcrübəsi göstərir ki, dövlət rəhbərinin sərt xəbərdarlıqlarından nəticə çıxarmayanların yolu bir gün mütləq həbsxanalarda kəsişir...

*Sənan Mirzə*

# Cahangir Hacıyevin ortağı ilə bağlı böyük müəmma...

## Qaytarılmayan on milyonlarla dollarlıq kreditin aqibəti necə olacaq?

***Rusiyanın Peterburq şəhərində Dövlət Ermitajının rəsmi oteli olan "The Hermitage Hotel" 2,7 milyard rubl start qiyməti olmaqla hərracdan satışa çıxarılır. Bu haqda yola salmaq üzrə olduğumuz həftə "Torgi-ru" internet resursu bildirib.***

Məlumata görə, şəhərin mərkəzində, Pravda küçəsində yerləşən otelin ümumi sahəsi 11 min 419 kvadratmetrdir, səkkiz mərtəbəlidir və yerləşdiyi torpaq sahəsi ilə birlikdə satılır. Hərrac yanvarın 26-na təyin edilib. Otelin mülkiyyətçisi "Beynəlxalq Baltik İnvestisiya Şirkəti" ASC-dir. Bu cəmiyyətin səhmlərinin 70 faizi Azərbaycan vətəndaşına, qalan 30 faizi Rusiya vətəndaşına məxsusdur. Otel 2013-cü ildə Azərbaycan Beynəlxalq Bankından ayrılan on milyonlarla dollar kredit hesabına əsaslı təmir edilmişdi. Lakin həmin kredit qaytarılmayıb və Azərbaycan Beynəlxalq Bankı "Beynəlxalq Baltik İnvestisiya Şirkəti" ASC barəsində üç dəfə müflisləşmə iddiası qaldırmağa cəhd edib. Lakin məhkəmə iddiaları təmin etməyib.

Qeyd edək ki, "The Hermitage Hotel"lə bağlı mübahisələr illərdir davam edir. Otelin əsas mülkiyyətçisi olan həmin Azərbaycan vətəndaşının adı Malik Babayevdir. Malik Babayev oteli daha əvvəlki sahibindən - qida sənayesi işçilərinin Mədəniyyət evindən 4,1 milyon dollara almışdı. Və Peterburqdakı məşhur Ermitajla anlaşaraq muzeyin adının otelin adı kimi istifadə edilməsinə razılıq alıb, əvəzində muzeyə müəyyən məbləğ ödəməyə razılaşıb. O, sovet dövründə məşhur olan, ancaq sonradan baxımsız vəziyyətə düşən uçuq-sökük oteli aldıqdan sonra binanı restavrasiya etmək üçün Azərbaycan Beynəlxalq Bankından illik 12 faiz olmaqla dollarla kredit götürüb. Babayevin bankdan nə qədər kredit götürdüyü məlum deyil. Ancaq ekspertlər hesab edir ki, binanın restavrasiyasına və təmirinə azı 35-40 milyon dollar xərclənib. Lakin bu kredit geri qaytarılmayıb və Azərbaycan Beynəlxalq Bankının Rusiyadakı törəmə bankı "MBA-Moskva" tərəfindən mülkiyyətə həbs qoyulmasına dair məhkəmə iddiası qaldırılıb. Bankdan o zaman bildiriblər ki, Babayevin şirkəti borc öhdəliklərini yerinə yetirmək istəmir. Borcun ödənilməsi xeyli müddət gecikdiyinə görə bank Babayevin girov qoyduğu əmlakı - oteli müsadirə etmək üçün iddia qaldırıb.

Malik Babayev Peterburqda daşınmaz əmlak sahəsinə investisiya qoyan biznesmendir. O, Beynəlxalq Bankın keçmiş rəhbəri, hazırda həbsdə olan Cahangir Hacıyevin biznes tərəf-müqabillərindən hesab olunurdu. "Beynəlxalq Baltik İnvestisiya Şirkəti"ni onunla birlikdə "MBA-Moskva" təsis etmişdi.

"Unikal"ın araşdırmaları zamanı məlum olub ki, ötən il "Beynəlxalq Baltik İnvestisiya Şirkəti"nin Azərbaycanın dövlət "Aqrarkredit" şirkətinə 34 milyon avro və 10 milyon dollar borcu ödəməsi barədə qərar çıxarılıb. Belə ki, Sankt-Peterburqun və Leninqrad vilayətinin Arbitraj məhkəməsi qərara alıb ki, "Beynəlxalq Baltik İnvestisiya Şirkəti" "Aqrarkredit"ə göstərilən məbləğləri ödəməlidir. Xatırladaq ki, "Aqrarkredit" Azərbaycan Beynəlxalq Bankının problemli aktivlərinin sahibi idi və Cahangir Hacıyevin payladığı pulların geri qaytarılması ilə məşğul olub.

Arbitraj məhkəməsinin materiallarından aydınlaşıb ki,



2017-ci ildə tərəflər qarşılıqlı güzəşt haqda razılaşma imzalayıblar. Bu razılaşmaya əsasən bütün məsələlər 6 milyon dollara həll edilməliydi. "Baltik Beynəlxalq İnvestisiya Şirkəti" həmin vəsaiti 2018-ci il iyunun 1-nədək geri qaytarmalıydı. Lakin belə görünür ki, pul ödənilməyib və "Aqrarkredit" Arbitraja müraciət edib.

"Aqrarkredit" əvvəldən cavabdeh tərəfdən 36 milyon avro və 11 milyon dollar tələb edirdi. Lakin məhkəmə çəkişməsi asan keçməyib. Cavabdeh tərəf hətta iddia edib ki, şirkətin direktoru Elşən Babayevin borc sənədlərindəki imzası saxtadır və nəticədə ona qarşı irəli sürülən iddialar əsassızdır. Məhkəmə isə ekspertiza təyin etməyib, çünki iddiaçı borc sənədinin saxta olmadığına dair dəlillər təqdim etmişdi.

Qeyd edək ki, Elşən Babayev Malik Babayevin qardaşıdır.

Bütün bunların fonunda "The Hermitage Hotel"in 2,7 milyard rubla satışa çıxarılması maraq doğurur. İstisna deyil ki, Cahangir Hacıyevin keçmiş ortağı hoteli sataraq əldə etdiyi pulla borcunu ödəyəcək. Hər halda hotel üzərində müsadirə iddiası qaldırılıb. Bu iddianın təmin edilib-edilmədiyi barədə məlumat yoxdur. Bu səbəbdən də mümkündür ki, M.Babayev hoteli sataraq kredit borcunu ödəmədən kənara çəkilmək istəyir. İstənilən halda bu haqda konkret danışmaq çox çətindir. Odur ki, bir qədər gözləyək, yəqin yaxın vaxtlarda bütün qaranlıq məqamlara aydınlıq gətiriləcək.

*Toğrul Əliyev*

# ATƏT sədri Ermənistanla Azərbaycan arasındakı situasiyadan narahatdır



***ATƏT-in fəaliyyətdə olan sədri və Polşanın xarici işlər naziri Zbiqnev Rau qurumun Daimi Şurasında çıxışı zamanı Cənubi Qafqazdakı vəziyyətə toxunub.***

Zbiqnev Rau Azərbaycanla Ermənistan arasındakı situasiyanın narahatlıq doğurduğunu vurğulayıb. O bildirib ki, ATƏT Qarabağ münaqişəsinin başa çatması fonunda Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün əldə olunması üzrə tədbirləri gücləndirməlidir.

O bildirib ki, bütün bunlar regionun hərtərəfli inkişafına xidmət edəcək.

Zbiqnev Raunun sözlərinə görə, ATƏT regionunda müharibə riski son 30 ildəkindən daha çoxdur.

# Məktəb direktoru axtarışa verildi – Səbəb

***Bakıda külli miqdarda dələduzluqda ittiham olunan keçmiş məktəb direktoru axtarışa verilib.***

"Unikal" xəbər verir ki, Lent.az-ın əldə etdiyi məlumata görə, paytaxtın Suraxanı rayonu Hövsan qəsəbəsi 196 saylı tam orta məktəbin sabiq direktoru Mehdiyeva Sevinc Əlisafa qızı barəsində Suraxanı rayon Prokurorluğunda cinayət işi başlanıb. Sabiq direktor dələduzluqda ittiham olunur. Onun vətəndaşlara qarşı 200 min manatdan çox dələduzluq etməsi ilə bağlı iddialar da var.

Barəsində axtarış elan olunan sabiq direktor ölkədən qaçıb. Onun Rusiyada olduğu güman edilir.

Qeyd edək ki, 37 yaşlı Sevinc Mehdiyeva Hövsan qəsəbəsi 196 saylı orta məktəbin direktoru olub. O, işlədiyi dövrdə məktəbin kollektivinə qarşı haqsızlıqlar edib. Belə ki, direktor, məktəbin Uşaq Birliyinin rəhbəri Firəngiz Kazımovanı səbəbsiz yerə, "səndən xoşum gəlmir" deyib işdən çıxarıb. Bundan sonra təsərrüfat işləri üzrə müavini Ülkər Zeynalovanı işdən azad edərək, onun yerinə atası Əlisəfa Hüseynovu təyin edib. Həmçinin ittihamlar arasında direktorun dərs yükü çox olan müəllimlərdən 200 manat, müəllimlər günündə hər müəllimdən onu da "görmələri" adı ilə 50 manat alması da yer alıb.

Bundan başqa S.Mehdiyevanın işə düzəltmək adı ilə xeyli sayda vətəndaşdan pul aldığı iddia olunur.

# Şaxta olacaq, yollar buz bağlayacaq - XƏBƏRDARLIQ

***Bakıda və Abşeron yarımadasında yaxın 2 gün ərzində güclü şimal-qərb küləyinin güclü cənub-qərb küləyi ilə əvəz olunacağı gözlənilir.***

Bu barədə "Unikal"a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Yanvarın 13-ü axşamdan şimal-qərb küləyinin 18-23 m/s, arabir 25 m/s, 13-dən 14-nə keçən gecə və 14-də səhər arabir 28-33 m/s-dək güclənəcəyi gözlənilir.

Qarla müşayiət olunan güclü külək nəticəsində yanvarın 14-ü səhər çovğun olacağı ehtimalı var.

14-ü günün ikinci yarısında küləyin 15-18 m/s olacağı, 14-ü axşamdan 15-i gündüzədək isə cənub-qərb küləyinə keçəcəyi, 15-20 m/s, arabir 27-32 m/s-dək güclənəcəyi gözlənilir.

Havanın minimal temperaturunun yanvarın 14-dən 15-nə keçən gecə 0º-yə yaxın, nisbətən yüksək ərazilərdə 2º-dək şaxta olacağı, yolların buz bağlayacağı gözlənilir.

Qeyd: Yağıntı haqqında xəbərdarlıq öz qüvvəsindədir.

**Azərbaycanın rayonlarında**

Yanvarın 13-ü axşam şimal və qərb rayonlarından başlayaraq 14-ü axşamadək yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv və güclü olacağı ehtimalı var.

Yanvarın 13-ü axşamdan 16-dək şimal-qərb, qərb küləyi 15-20 m/s, arabir 23-25 m/s, ayrı-ayrı yerlərdə arabir 28-32 m/s-dək güclənəcək. Yağıntı 14-ü axşamadək davam edəcək.

Havanın minimal temperaturunun 14-dən 15-nə keçən gecə Mərkəzi aran rayonlarında 0-5º şaxta, dağlarda 8-13º şaxta, yüksək dağlıq ərazilərdə 15-20º şaxta olacağı gözlənilir.

Şaxtalı hava şəraiti ilə əlaqədar yolların buz bağlayacağı ehtimalı var.

# Bankların vəziyyəti düzəlib, amma yenə əyridir

## Real iqtisadiyyatı kreditləşdirmək niyə mümkün olmur?




***Bank sektorunda vəziyyət sabitdir. Bunu cari ilin yanvar-noyabr aylarında sektorun 614,1 milyon manat xalis mənfəət əldə etməsi faktı da sübut edir. Qeyd olunan göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz çoxdur. Artıq başa çatmaqda olan il ərzində bank sektoru xalis mənfəət cəhətdən hər ay artım nümayiş etdirib.***

Bu ilin dekabrın 1-nə ölkəmizin bank sektorunun aktivləri 35 604,5 milyon manat təşkil etməklə, ötən il yanvarın 1-i ilə müqayisədə 15,8 faiz çox olub. Xatırladım ki, aktiv - bankların həyata keçirdiyi kredit əməliyyatları üzrə əmələ gələn vəsaitə deyilir. İlk dəfədir ki, bankların aktivləri 35 milyard manatı keçib.

Xalis mənfəət göstəricisi üzrə 11 ay ərzində (2021-ci ilin yanvar-noyabr ayları) bankların əməliyyat gəlirləri 2 693,3 milyon manat - ötən ilin eyni dövrünə nisbətən 14,6 faiz çox, əməliyyat xərcləri 1 777,6 milyon manat (15,1 faiz çox), xüsusi ehtiyatlara ayırmalar 180,8 milyon manat (61,4 faiz çox), digər gəlirlər isə 0,9 milyon manat (2,3 dəfə çox), mənfəət vergisi ödəmələrisə 121,6 milyon manat (16,8 faiz az) təşkil edib. Bankların aktivlərinin 15 097,0 milyon manatını isə müştərilərə verilmiş xalis kreditlər təşkil edib ki, son 1 ildə sektorun kredit portfeli 15,2 faiz böyüyərək, kreditlərin aktivlərdəki payı 42,6 faizlə 42,4 faiz aralığında qərarlaşıb.

Son illər ərzində həm xarici şəraitin normallaşması, həm hökumətin və dövlətin bank sektorunu 2014-2015-ci illərdə yaranan böhran nəticəsində üzləşdikləri problemlərdən xilas etməsi sayəsində kommersiya banklarının vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Əgər 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən problemli kreditlər məsələsi həll olunmasaydı və banklar "süni nəfəs aparatından" ayrılmasa idilər, indi vəziyyətin nə yerdə olacağını təsəvvür etmək də çətin idi.

Yeri gəlmişkən, problemli kreditlər göstəricisi də qənaətbəxş vəziyyətdədir. Bu il dekabrın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 786,3 milyon manat təşkil edib ki, bu da problemli kreditlərin həcminin ilin əvvəlinə nisbətən 12 faiz, son 1 ildə isə 14,8 faiz azaldığı deməkdir. Bank sektorunda vəziyyətin düzəlməsinə daha bir əyani sübutsa əhalinin əmanətlərinin yerləşdirilməsi üzrə dollara meylin azalması faktorudur. Yəni, başqa sözlə desəm, dedollarizasiya prosesinin güclənməsidir.Bu, çox müsbət tendensiyadır.

Cari ilin ötən 11 ayının yekununa görə banklarda cəmi depozitlərin həcmi 26790.9 milyon manat təşkil edib. Ümumiyyətlə, Azərbaycanda əhali dollarda deyil, milli valyutada depozit qoymağa daha çox meyllənib. Fiziki şəxslərin əmanətlərinin həcmi 1 dekabr 2021-ci il tarixinə 9051.7 milyon manat ekvivalentində olub. 2021-ci ilin əvvəli ilə müqayisədə fiziki şəxslərin depozitlərinin həcmi 873.82 milyon manat artıb. Son bir ayda isə əhalinin banklardakı depozitlərinin həcmi 164.28 milyon manat və yaxud 1.8 faiz təşkil edib. Fiziki şəxslərin depozitlərinin 5 267.7 milyon manatı müddətli (yəni faiz almaq müqabilində banka yerləşdirilmiş), 3 613.2 milyon manatısa tələbli depozitlər olub.

Əhalinin depozitlərinin həcmi milli valyutada daha kəskin artıb. Məsələn, manatda olan depozitlərin həcmi son bir ayda 4.2 faiz, ilin əvvəlindən isə 1 227.67 milyon manat və yaxud 30.5 faiz artım nümayiş etdirərək, 5 254.8 milyon manata yüksəlib. Xarici valyutada isə ilin əvvəlindən bəri baş verən eniş son bir ayda 1.2 faiz (47.10 milyon manat), ilin əvvəlindən isə 8.5 faiz (353.84 milyon manat) azalaraq 3 796.9 milyon manata qədər düşüb.

Xatırladım ki, banklarda dollarlaşma 2014-cü ildə neftin dünya bazar qiymətləri düşdükdən sonra başlamışdı. 2015-ci ildə Mərkəzi Bank tərəfindən iki dəfə devalvasiya nəticəsində bu proses daha da sürətləndi. 2017-ci il və ondan sonrakı ilə qədər banklarda yerləşdirilən vəsaitlər əsasən dollarla idi. Manatın dəyəri möhkəmləndikcə, eyni nöqtədə qalıb sabit xarakter daşıdıqca və banklar tərəfindən dedollarizasiya prosesi stimullaşdırıldıqca - manatla əmanət qoyuluşu şirnikləndirildikcə balans tədricən dəyişməyə başladı. Və budur, manatla əmanət yerləşdirilməsi daha çoxdur.

Bəs, bütün bu qeyd olunanlara əsasən bank sektorunun real vəziyyətini artıq sağlam hesab etmək mümkündürmü?! Təəssüf ki, hələ də, yox!(azvision)

***Pərviz Heydərov***

# Emin Əmirullayev üçün "Qordi düyünü..."

## Həftənin sualı: Təhsil naziri bu "düyünü" aça biləcəkmi?

***Sosial şəbəkələrdə, eləcə də yerli mediada "Bakıda direktor şagirdi döydü", "Müəllim şagirdi xəstəxanalıq etdi", "Valideyn direktoru döydü" və s. başlıqlı xəbərlərlə tez-tez qarşılaşırıq.***

Bu cür xəbərlərə reaksiyalar müxtəlifdir. Kimisi uşaqlara fiziki təzyiq göstərilməsini nəinki problem, hətta faciə kimi qiymətləndirir, başqa biri isə əksinə, bunun uşaqların təhsilinə fayda verdiyinə inanır. Ümumiyyətlə, pedaqoji prosesdə şagirdin cəzalandırılması və bu zaman fiziki üsullara əl atılması dünyanın inkişaf etmiş ölkələrində qəbuledilməz sayılsa da, bizdə, şərq cəmiyyətlərinin bir çoxunda belə yanaşmaya tərbiyə prosesinin bir forması kimi baxanlar az deyil.

Maraqlıdır ki, xüsusən də Sovet dövründə müəllimlərin şagirdləri döyməsi normal hal hesab edilirdi. Hətta bundan xəbər tutan valideynlər də övladlarını danlayar, cəzalandırardılar. Övladının oxuması üçün müəllimlərdən onu cəzalandırmasını istəyərək "Əti sənin, sümüyü mənim" deyənlər də vardı. Mövzuya mental yanaşmanı xatırlatmaq üçün bir az da keçmişə qayıtsaq, Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət, siyasət tarixində mühüm yeri olan şəxsiyyətlərin çoxunun mədrəsələrdə bəlli məhdudiyyətlər və təzyiq mühitində təhsil aldıqlarını görərik. İndi isə müəllimin uşağa səsini yüksəltdiyini eşidən valideynlər dərhal məktəbə və ya Təhsil Nazirliyinə şikayət edirlər. Onların arasında müəllimləri hədələyən, döyənlər də az deyil. Bir sözlə, indi direktorlar da, müəllimlər də, valideynlər də, hətta şagirdlər də çox dəyişib. Kim haqlıdır? Müəllim şagirdə qışqıra, onu cəzalandıra bilərmi? Əslində, sözügedən məsələlər necə tənzimlənməlidir?

Bu suallara cavab olaraq Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti Nadir İsrafilov "pressklub.az"a deyib ki, bu kimi hallarda təkcə müəllimi prosesin subyekti kimi önə çəkmək, hesab edirəm ki, düzgün mövqe deyil. Nəzərə alaq ki, hansısa beş-üç müəllimin qeyr-ixtiyari hərəkəti cəmiyyətdə 150 minlik müəllim ordusunun hərəkəti kimi assosiasiya olunur, onsuz da sarsılmış müəllim nüfuzunu bir az da sarsıdır.

Başqa bir təhsil eksperti Kamran Əsədov isə düşünür ki, bu cür problemlərin əsas səbəbi məktəblərin öz funksiyalarını yerinə yetirə bilməməsidir. Onun sözlərinə görə, əvvəllər şagirdlər orta məktəbdə minimum zəruri bilik və bacarıqlara yiyələnə biliblər: "Məktəb şagirdlərinə həm bilik, həm bacarıqlar, həm də tərbiyə verirdi. Valideyn demək olar ki, bu istiqamətdə heç bir iş görmürdü. İndi isə şagirdlər az qala dünyaya göz açandan repetitor yanına, hazırıq kurslarına gedir. Yəni, valideynlər şagird üçün indi həm maddi, həm mənəvi bütün resurslarını səfərbər edir. Bu o deməkdir ki, məktəbin pulsuz görməli olduğu işi valideynlər pulla görür. Sonda isə valideyn məktəbə gəlib haqlı iradını bildirir ki, sən mənimlə birlikdə övladımı böyütmüsən ki, onu da döyürsən?" Məktəbi idarə edənlər isə sadalananları yerinə yetirə bilmədikləri üçün fiziki zorakılığa üz tuturlar".



Bəs Təhsil naziri Emin Əmirullayev sözügedən problemlə bağlı nə düşünür? Biz şagirdlərin məktəbdə zorakılığa məruz qalması ilə bağlı davamlı xəbərlər oxusaq da, hələlik Emin müəllim bu barədə mövqe sərgiləməyib. Hərçənd belə bir mövqeyə əşhədü-ehtiyac var. Düzdür, Təhsil naziri yarım ay öncə 116 nömrəli məktəbin müəlliminin jurnalistin oğlan övladını saçının uzun olması səbəbindən şagirdlərə qız kimi təqdim etməsinə münasibət bildirmiş və demişdi: "İnanıram ki, bunu şagirdi alçatmaq üçün etməyib. Həmin müəllim illərin təhsil işçisidir və savadlı kadrdır. Səhvini etiraf etdi və töhmət də aldı". Lakin bu səthi mövqedir, daha çox problemin üstünü örtməyə hesablanmış yanaşmadır və bənzər faktların bir daha baş verməməsi baxımından effektiv sayıla bilməz. Emin müəllim daha açıq və kəskin mövqe ortaya qoymalı idi. Üstəlik, məsələ sadəcə mövqe bildirməklə də bitmir. Ümumilikdə məktəbin, müəllimin nüfuzunu zədələyən hallarla bağlı Təhsil Nazirliyi xüsusi araşdırmalar aparmalı və tədbirlər proqramı müəyyənləşdirməlidir. Çünki oxşar hallar yaşandığı təqdirdə sadəcə hüquqi cəzaların işə salınması haqqında danışdığımız problemin həlli baxımından kifayət etməyə bilər. Təhsil Nazirliyinin qabaqlayıcı addımları vacibdir ki, biz artıq təhsil müəssisələrindən qanqaraldıcı, xoşagəlməz xəbərlərin gəlməsini önləyə bilək.

Ürək ağrısı ilə deməliyik ki, əks təqdirdə məktəbin də, müəllimin də nüfuzu sarsılmaqda davam edəcək...

***Gülayə***

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İqtisadi rayonların yeni bölgüsü nə vəd edir?

## Əli Əlirzayev: "İqtisadi rayonların yeni bölgüsü rayonlararası iqtisadi inkişafa, bir sıra spesifik sahələrin inkişafına gətirib çıxardacaq"



***Yola saldığımız ildə Azərbaycanda bir sıra iqtisadi islahatlar həyata keçirildi. Bunlardan ən mühümi iqtisadi rayonların yeni bölgüsü ilə bağlı verilən fərmanlardır. Ölkə prezidentinin iqtisadi idarəetmədə çevikliyin təmin olunması məqsədilə 2021-ci il iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman iqtisadçılar tərəfindən də yüksək qiymətləndirilir.***

İqtisadçı alim Əli Əlirzayev deyir ki, iqtisadi rayonların yeni bölgüsü regionlarda bərabər inkişafın təmin edilməsi və rəqabətqabiliyyətli ixtisaslaşmanın aparılması baxımından əlverişli imkanlar yaradacaq. Onun sözlərinə görə, yeni iqtisadi rayonlar effektiv olacaq: " Bu həm də regionların idarəetmə üslubunda dəyişikliklərə gətirib çıxardacaq. Büdcə xərclərinin kənarlaşmasının qarşısının alınmasında önəmli rol oynayacaq. Həm də regionların inkişafına yol açacaq. Biznes mühiti yaradılacaq, sahibkarın əli-qolu açılacaq". Ə. Əlirzayevin sözlərinə görə, iqtisadi rayonların yeni bölgüsü yeni iş yerlərinin açılmasına, rayonlararası iqtisadi inkişafa, eləcə də turizm və bir sıra spesifik sahələrin inkişafına gətirib çıxardacaq". Bəs görəsən yola saldığımız il daha hansı iqtisadi layihələrlə yadda qalıb? İqtisadiyyat Nazirliyindən sorğumuza cavab olaraq bildirildi ki, ötən il ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda irəliləyiş əldə edilib. 2021-ci ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal edilib. Qeyri neft-qaz sektorunda istehsal olunan əlavə dəyər 6,2 faiz artıb. Bununla yanaşı, Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-sentyabr aylarında 36,6 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 19,6 faiz artıb. Dövlət proqramı çərçivəsində regionlarda Sumqayıt Kimya Sənaye Parkında "Termoformasiya metodu ilə vərəqə şüşə istehsalı" layihəsi üzrə "AzerFloat" QSC və "Qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası" layihəsi üzrə "Azmonbat" MMC istismara verilib. Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi fəaliyyətini davam etdirib. Pirallahı Sənaye Parkında "Dərman vasitələrinin istehsalı" layihəsi üzrə - "R-Pharm" MMC və "Müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı" layihəsi üzrə - "Diamed Co" MMC tərəfindən istehsal fəaliyyəti, "Uşaq bezlərinin istehsalı" və "Zəfərandan mürəbbə və limonad istehsalı" layihələri üzrə müəssisələrin təşkili işləri davam etdirilib. Bununla yanaşı Balaxanı Sənaye Parkının 23 rezidentindən 16-sı tərəfindən istehsal fəaliyyəti, digər rezidentlər tərəfindən isə istehsal sahələrinin tikintisi davam etdirilib. Hesabat dövründə Hacıqabul Sənaye Məhəlləsinin açılış mərasimi həyata keçirilib. Hacıqabul Sənaye Məhəlləsində plastik su qabları istehsalı, avtomobil istehsalı, plastik tara istehsalı və maye, toz, gel və yarpaq gübrələri istehsalı müəssisələrinin istehsal fəaliyyəti, izolyasiya məhsulları istehsalı zavodunun tikintisi, tikinti materiallarının istehsalı üçün avadanlıqların istehsalı müəssisəsində quraşdırma işləri davam etdirilib. Masallı Sənaye Məhəlləsində ümumi investisiya dəyəri 11,44 milyon manat olan 9 rezident qeydiyyatdan keçib. Ümumilikdə, Masallı Sənaye Məhəlləsində 9 layihənin icrası nəticəsində 300-ə qədər yeni iş yerinin yaradılması nəzərdə tutulur. Neftçala Sənaye Məhəlləsində avtomobil, suvarma sistemləri, polietilen suvarma boruları, balıq və toyuq-cücə yemi istehsalı, kənd təsərrüfatı avadanlığı və metal konstruksiyalar istehsalı, soya və ekstruziya olunmuş pambıq jmıxı istehsalı, elektrod istehsalı və satışı, orqanik maye gübrələrin istehsalı ilə məşğul olan 8 müəssisə qeydiyyatdan keçib. Hal-hazırda 3 müəssisə faktiki fəaliyyət göstərir. Sabirabad Sənaye Məhəlləsinə iştirakçı kimi qeydiyyatdan keçmək üçün daxil olan müraciətlərin qiymətləndirilməsi nəticəsində ümumi investisiya dəyəri 10,28 milyon manat, iş yerlərinin sayı 150-dən çox olan 7 investisiya layihəsi barədə qərar qəbul edilib. Ölkədə real sektora özəl investisiyaların cəlb edilməsini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə təsdiq olunmuş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na uyğun olaraq hesabat dövründə də investisiya təşviqi sənədinin verilməsi davam etdirilib. 2021-ci ilin yanvar-sentyabr ayları ərzində 33 sahibkarlıq subyektinə 33 investisiya təşviqi sənədi və 139 sahibkarlıq subyektinə 437 təsdiqedici sənəd təqdim edilib. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 164,9 milyon manat investisiya yatırılacağı, 1482 yeni iş yerinin açılacağı nəzərdə tutulub. Sahibkarlara, o cümlədən regionlarda fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin göstərilməsi 2021-ci ilin 9 ayı ərzində də davam etdirilib, 1152 investisiya layihəsinin maliyyələşdirilməsinə 60,9 milyon manat, o cümlədən respublikanın regionları üzrə 1125 investisiya layihəsinin maliyyələşdirilməsinə 48,6 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 1796 yeni iş yerinin açılması imkanı yaranıb.

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

AZƏRBAYCAN RESPUBLİKASI MTRŞ MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASI

# Yeni radionun açılması üçün müsabiqənin şərtləri

***Milli Televiziya və Radio Şurası (MTRŞ) tərəfindən ümumrespublika radio kanalının açılması üçün Bakı şəhəri və Abşeron yarımadası ərazilərində ümumrespublika radio yayımı üzrə 107,0 MHz işçi tezliyinə elan edilən müsabiqənin şərtləri açıqlanıb.***

"Unikal" xəbər verir ki, müsabiqədə aşağıdakı şəxslər iştirak edə bilməzlər: - Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər; - nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin payı olan hüquqi şəxslər; - ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş, habelə məhkumluğu ödənilməmiş şəxslər; - fəaliyyət qabiliyyətsizliyi, yaxud fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər; - siyasi partiyalar; - dini qurumlar. Müsabiqədə iştirak etmək üçün MTRŞ-a aşağıdakı sənədlər təqdim olunmalıdır: 1. Lisenziya almaq üçün müəyyən olunmuş qaydada ərizə (ərizə formasını Milli Televiziya və Radio Şurasından və ya Şuranın internet səhifəsindən - www.ntrc.gov.az - əldə etmək olar). 2. İddiaçı, fiziki şəxsdirsə, onun şəxsiyyət vəsiqəsinin notarial təsdiq olunmuş surəti və əmək fəaliyyətini əks etdirən geniş tərcümeyi-halı. 3. İddiaçı, hüquqi şəxsdirsə, onun nizamnaməsinin və təsis müqaviləsinin (təsisçilərin sayı 1-dən çox olduğu halda) notarial təsdiqlənmiş surəti; hüquqi şəxsin dövlət qeydiyyatına alınmasını təsdiq edən qeydiyyat şəhadətnaməsinin notarial təsdiq olunmuş surəti; hüquqi şəxsin təsisçisinin şəxsiyyət vəsiqəsinin notarial təsdiq olunmuş surəti və əmək fəaliyyətini əks etdirən geniş tərcümeyi-halı. 4. İddiaçının vergi uçotuna alınması haqqında şəhadətnaməsinin notarial təsdiq olunmuş surəti. 5. İddiaçının idarəetmə orqanının rəhbərinin (direktor, baş direktor) vəzifəyə təyin olunması haqqında sənəd (əmr, sərəncam və s.), onun şəxsiyyət vəsiqəsinin notarial təsdiq olunmuş surəti və əmək fəaliyyətini əks etdirən geniş tərcümeyi-halı. 6. Kadr tərkibi və kadrların peşə hazırlığının səviyyəsi barədə arayış. 7. Əsas vəsaitlərin balans üzrə siyahısı (ilkin və qalıq dəyəri ilə). 8. İcarəyə götürülmüş əsas vəsaitlərin siyahısı və icarə müqavilələrinin surəti. 9. Proqramların hazırlanmasında və yayımlanmasında istismar olunacaq əsas qurğu və avadanlıqlar. 10. Yayımın proqram konsepsiyası (konsepsiyanın formasını və onun doldurulmasına aid izahatı Milli Televiziya və Radio Şurasından və ya Şuranın internet səhifəsindən - www.ntrc.gov.az - əldə etmək olar). 11. Radio kanalının fərqləndirici nişanı (logotip və ya emblem). 12. Müsabiqədə iştirak etmək üçün 200 (iki yüz) manat həcmində birdəfəlik ödəniş. Müsabiqədə 3 (üç) iddiaçıdan az şəxs iştirak edərsə, müsabiqə baş tutmamış hesab olunur. Bu halda müsabiqənin vaxtı təkrar 1 (bir) ay müddətinə uzadıla və ya ləğv oluna bilər. Müsabiqə keçirilərkən iddiaçının göstəricilərinin müsabiqə şərtlərinə uyğunluğu və radio yayımını həyata keçirmək üçün iddiaçının yaradıcılıq və texniki imkanları nəzərə alınır. Bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində təqdim olunur. Bütün sənədlər tikilməli, imzalanmalı, möhürlənməli və tarixi qeyd olunmaq şərti ilə Şuraya təqdim edilməlidir. Sənədlər 7 nüsxədə təqdim olunmalıdır. Yuxarıda göstərilən sənədlərdən hər hansı birinin çatışmadığı halda ərizəyə baxılmır. Müsabiqə üçün tələb olunan sənədlər 2022-ci il yanvarın 17-dən fevralın 17- dək (şənbə və bazar günləri istisna olmaqla) Milli Televiziya və Radio Şurasının inzibati binasında (ünvan- Bakı şəhəri, Şərifzadə küçəsi 315) saat 10.00-dan 18.00-dək qəbul edilir.

## Dövlət agentliyi gücləndirilmiş iş rejiminə keçdi

***14-15 yanvar tarixlərində ölkə ərazisində gözlənilən qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi gücləndirilmiş iş rejiminə keçib.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) Modern.az-a verilən məlumata görə, dağlıq və dağətəyi ərazilərdə proqnozlaşdırılan qarlı və şaxtalı hava şəraiti nəzərə alınaraq agentlik tərəfindən avtomobil yollarında nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədi ilə qeyd olunan ərazilərdə avtomobil yollarına xidmət göstərən tabeli təşkilatlara gücləndirilmiş iş rejimində fəaliyyət göstərmələri barədə tapşırıq verilib.

## Borca görə axtarışda olan 64 nəfər saxlanıldı

***Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün ərzində törədilmiş 96 cinayətin üstü "isti izlər"lə açılıb.***

DİN-in mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, əvvəlki dövrlərdən bağlı qalmış 5 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 74 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 64 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 59, qanunsuz saxlanılan silah-sursatla bağlı 5 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 85 nəfər saxlanılıb.

## Ölkə üzrə bütün pensiyalar bu tarixdə ödəniləcək

***Respublika üzrə bütün pensiyaların yanvarın 14-də tam ödənilərək yekunlaşdırılması nəzərdə tutulub.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

Qeyd olunub ki, həmin gün güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin də pensiyası ödəniləcək.

"Omicron"a yoluxanlar neçə günə sağalır? - Baş infeksionist açıqladı

Xəbər veriyimiz kimi, artıq Azərbaycanda da "Omicron" ştammına yoluxma aşkarlanıb.

Bəs, yeni ştammı kimlər daha ağır keçirdir? Onun spesifik xüsusiyyətləri nələrdir?

Suallarla bağlı Lent.az-a açıqlama verən Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bildirib ki, bu xəstəliyi 60 yaşdan yuxarı insanlar daha ağır keçirdir:

"Omicron"u da digər ştamlarda olduğu kimi risk qruplarına daxil olan şəxslər (60+, ağır xroniki xəstəliyi olanlar) daha ağır keçirir. Yaşa görə xəstələnmə hallarının sayının uşaq kontingentində əvvəlki ştamlarla müqayisədə bir qədər artdığı bildirilir. "Omicron" ştammına qarşı qoruyuculuq əldə etmək üçün tam (2 doz) peyvənd olunmalıdır. Əgər sonuncu dozdan 5-6 aydan çox vaxt keçibsə, 3-cü buster doz vurdurulmalıdır.

Baş infeksionist həmçinin bildirib ki, "omicron" ştamminın törətdiyi xəstəlik kəskin respirator virus infeksiyalarına çox oxşardır və əsasən yüngül keçir:

"Onu digərlərindən fərqləndirən heç bir spesifik simptomu yoxdur. Yüngül xəstəlik hallarında "omicron" daha tez (5-7-10 günə) sağalır".

## Əhəd Abıyevin 59 yaşı tamam olur



***Daşkəsən rayonu icra hakimiyyətinin başçısı Əhəd Abıyevin 59 yaşı tamam olur. Daşkəsən rayon mətbuatyayım şöbəsinin rəisi Yaqub Ələkbərov Əhəd Abıyevi təbrik edir.***

Y.Ələkbərov icra başçısına işlərində uğurlar arzulayıb, Allahdan ona cansağlığı, möhkəm iradə diləyib.

# Azərbaycanda "Omikron"a yoluxanların vəziyyəti açıqlandı

***Azərbaycanda koronavirusun "Omikron" ştamına yoluxan şəxslərin səhhətində ağırlaşma halları müşahidə olunmur.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, hazırda həmin şəxslərin vəziyyəti stabildir, evdə müşahidə altındadırlar: "Həmin ştama yoluxan 12 nəfərin 8-dən götürülən təkrar test nümunələri mənfi nəticələnib və bu barədə məlumat "e-tabib" sistemində yer alıb. Epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır".




Xatırladırıq ki, ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrdən 12-sində SARS-CoV-2 21K Omikron variantı aşkarlanıb.

Əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub.

Bu səbəbdən səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici (buster) doza ilə peyvəndləməyə çağırır.

Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına da riayət olunmalıdır. Fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalar, virusun mutasiyasından asılı olmayaraq xəstəlikdən qorunmağın və normal həyata qayıtmağın yeganə yoludur.

# Həqiqi kərə yağını saxtasından ayırmağın sadə üsulları

***Kərə yağı mətbəximizdə ən çox istifadə edilən qidalar sırasındadır. Təbii kərə yağının bədənə faydası əvəzsizdir.***

Bəs əsl kərə yağını necə müəyyən etmək olar?

Təbii kərə yağını saxtasından ayırmağın üsullarını təqdim edirik.

Kərə yağından kiçik bir hissəni götürüb isti suyun içərisinə atın. Həqiqi kərə yağı bir parça şəklində kiçiləcək əriyəcək. Əgər yağ hissələrə ayrılaraq əriyirsə, demək həqiqi deyil.

Əsl kərə yağı otaq temperaturunda tam ərimaz, sadəcə yumşalar. Nə qədər yumşalsa da, forması dəyişməz. Əksi prosesi müşahidə etsəniz demək yediyiniz həqiqi kərə yağı deyil.

Əsl kərə yağını soyuducudan çıxaran kimi kəsməkdə çətinlik çəkə bilərsiniz. Lakin kəsərkən yağda çatlar yaranırsa, demək təbii deyil.

Sarı kərə yağı daha təbiidir. Lakin ağ rəngdə də kərə yağı ola bilər. Bu yağ hazırlanarkən istifadə edilən heyvanın südündən asılıdır.

Kərə yağını tavada əridəndə üzərində qabarcıqlar yaranmaz və



köpüklənməzsə demək həqiqi kərə yağı deyil.

# Şamaxıda sürüşmə - Yeni çəkilən yol dağıldı

***Şamaxı rayonunda Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunda torpaq sürüşməsi baş verib.***

"Unikal" xəbər verir ki, rayon mərkəzindən 22 km aralı məsafədə yerləşən bu yolda baş verən sürüşmə nəticəsində təhlükəli vəziyyət yaranıb.

2020-ci ilin əvvəllərində yenidən qurularaq istifadəyə verilən və uzunluğu 16 kilometr olan Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunun bir neçə hissəsi dağılıb, asfalt örtüyündə çökmələr və yolun ortasında iri çatlar əmələ gəlib. Ən çox sürüşmə yolun 6-8-ci kilometrliyində qeydə alınır. 8-ci



kilometrlikdə yolun bir hərəkət zolağı dərəyə doğru sürüşərək dağılıb, 3 metr dərinliyində iri çuxur yaranıb. Yolun digər tərəfində isə asfalt örtüyü dağılaraq iri qabarmalar əmələ gəlib ki, bu da sürücülər üçün təhlükə yaradır.

Əsasən də dumanlı havada və axşam saatlarında yoldan istifadə edən sürücülər çətinliklə üzləşirlər. Digər tərəfdən, sürüşmə ərazisində təhlükədən xəbər verən yol nişanlarının olmaması da sürücülərin qəza törətməsinə səbəb olur.

Dörd kəndi birləşdirən və turizm əhəmiyyətli bu yolda ilk dəfədir ki, torpaq sürüşməsi baş verib. Sakinlərin sözlərinə görə, çatlar hər gün genişlənir, çökmələr böyüyür. Uzun illər yolun yenidən qurulmasını arzulayan sakinlər bu yeni yolun qısa vaxt ərzində yararsız vəziyyətə düşəcəyindən narahatdırlar. Hazırda sürüşmə aktiv fazadadır.

# Qasırğa xəbərdarlığı: İlin ilk və ən güclüsü olacaq

***Yanvarın 16-da baş verəcək maqnit qasırğası bir sıra geomaqnit qasırğalarının ilk və ən güclüsüdür.***

Günəşin mənfi təsirlərinə hazırlaşmaq və müəyyən dərəcədə qorunmaq üçün meteohəssas insanların bir ay ərzində maqnit qasırğaları ilə bağlı vəziyyəti əvvəlcədən bilmələri faydalıdır. Çünki maqnit qasırğaları dövründə insanın əhvalının pisləşməsi mümkündür.

2022-ci ilin yanvar ayının başlanğıcı geomaqnit mühitdə sakitliyi ilə seçilib və Yeni ili problemsiz və başağrısı olmadan qarşılamağa imkan verib. Ancaq ayın ortalarından başlayaraq Günəş daha aktiv olmağa və yer kürəsini ciddi təşvişə salmaqda ciddidir.

Yanvar ayının ikinci hissəsi uzunmüddətli geomaqnit dalğalanmaları ilə zəngin olacaq. Qasırğa demək olar ki, ayın bütün üçüncü ongünlüyünü əhatə edəcək.

Ən güclü maqnit qasırğası isə Yer kürəsini yanvarın 15-dən 17-dək vuracaq. Onun zirvəsi 16-na düşəcək və G2 səviyyəsinə çatacaq.

2022-ci ilin yanvar ayı üçün maqnit qasırğası proqnozu



- Cüzi maqnit qasırğaları gözlənilən günlər: 18, 23, 24, 25, 26, 28, 29, 30.
- Yanvarın 15, 16 və 17-də güclü maqnit qasırğasının baş verəcəyi gözlənilir.

# Əkiz qardaşların ömür və döyüş yolları

***Şəhidlərin nəfəslərinin bitdiyi yerdən başlayar ölümsüzlükləri. Donub qalan bir ömrün davamı əbədi dünyanın cənnətində başlayır. Bu dünyada qısa ömür yaşayıb şərəfin, mənəviyyatın izahını qanla yazıb, dünyadan köçənlərin qanının damladığı, cisminin qarışdığı torpaqdan başlayır vətən sevgisinin izahı. Bu sevginin bədəli ömürdü. Şəhid ömrü.***

Aqilin də ömür yolu çox şəhidlərin ömür yolu kimi qısa lakin şərəflidir. Ömür yoluna ilk qədəmi 3 aprel 1998-ci ildə qoymuşdu Aqil. Onun yol yoldaşı isə əkiz qardaşı Azad olmuşdu. Bir bətndə can tapan qardaşlar həm zahiri görünüşləri, həm də daxili aləmləri ilə bir-birindən fərqlənmişdilər. Aqil daha şən, çılğın, biraz da dəcəl uşaq olmuşdu. Azad və Aqil 6 övladlı ailənin son beşik əkiz övladları olmuşdular. Qardaşlar 2005-ci ildə Tovuz rayon N. Tusi adına təbiət və texniki təmayüllü məktəb - liseydə təhsil almağa başlamışdılar. VI sinfi bitirdikdən sonra Tovuz rayon A. S. Puşkin adına tam orta məktəbdə təhsillərini davam etdirmişdilər.






Qardaşlar həyat yollarında bütün addımları bərabər atmışdılar. Universitet yollarına qədər. Qardaşların yolları universitetə girdikləri zaman ayrılmışdı.

Uşaqlıqdan hərbçi olmaq arzusunda olan Aqil yüksək balla Azərbaycan Ali Hərbi Məktəbinə, Azad isə Azərbaycan Dövlət Aqrar Unversitetinə qəbul olmuşdu. Aqil 2016-cı ildə AAHM-ə gedən zaman bu sözləri yazmışdı: "Hərbidə yüksək maaş ola bilər. Amma mən hərbiyə karyera və ya biznes qurnaq üçün getmirəm. Savadlı hərbi qulluqçu olmaq üçün gedirəm. Hərbi həyat tərzidir. 10:00 -dan etibarən həyat tərzim yaxşılığa doğru dəyişəcək. Allah amanında..."

Aqil bu peşəyə vurğun idi. Canı ilə, qanı ilə bu vətənə sipər durub, məlhəm olmağa hər an hazır idi. İllərlə Ali Baş Komandanın əmr verməsini səbirsizliklə gözləmişdi. Döyüşə gedərkən də bu arzusunu yazıb paylaşıb getmişdi.

Aqil 2020-ci ilin iyununda Azərbaycan Ali Hərbi Məktəbini leytenant hərbi rütbəsi ilə başa vurmuş və Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. Atası onun yerini dəyişmək istəsə də Aqil razılaşmamışdı. O, hər zaman ön cəbhədə olmaq və düşmənin gözlərinə dik baxmaq istəmişdi.

Azad isə universiteti başa vurduqdan sonra iyul ayında həqiqi hərbi xidmətə yollanmışdı. O da Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmət etmişdi. Qardaşlar eyni rayonda fərqli hərbi hissələrdə vətən keşiyini çəkmişdilər. 27 sentyabrda II Qarabağ müharibəsi başlayan ilk andan Azad artileriyaçı kimi, Aqil tankçı kimi döyüşə atılıblar. Füzuli rayonunun Qaraxanbəyli kəndi ərazisində gedən döyüşlərdə hər iki qəhrəman şücaət göstərib. 27 sentyabrda Aqil doğmalarına mesaj yazaraq sağ-salamat olduğunu bildirib. Azaddan isə heç bir məlumat almaq mümkün olmayıb.

Sentyabrın 28-də Aqil doğmalarına zəng edib. Hər şeyin qaydasında olduğunu deyib. Bacısı Gülüstana dua etməsini istəyib. O andan bacı dayanmadan dua edib. Saat 16:00 -da sanki onu hansısa bir qüvvə saxlayıb. Demə, həmin vaxtlarda Aqilin də içində olduğu tank düşmənin minamyot atəşinə tuş gəlib. Tankın içinə düşən minamyotun qəlpəsi Aqili ağır yaralayıb. Tank alışmağa başlamadan digər əsgərlər Aqili çıxarıblar. Lakin tankın içərisində yanaraq can verən oğullarımız da olub.

Aqil silahdaşlarının müdaxiləsinə baxmayaraq həyata tutuna bilməyib. Son nəfəsində su istəsə də onun nəfəsi suyu içməyə çatmayıb. 28 sentyabr Aqil Vətən müharibəsi şəhidi kimi gözlərini həyata əbədi yumub.

Ailə döyüşdə olan heç bir oğlundan xəbər ala bilməyib. Müharibə bu ailəyə tanış idi. Ailənin böyük oğlu Elşad Tovuz döyüşlərində iştirak etmişdi. Hər 3 oğul vətən sevdalı idi. Müharibənin nə demək olduğunu bilən ailəni bu səssizlik qorxutsa da sabaha Günəşlə bərabər ümidin doğmasını arzu ediblər. Lakin o Günəş, o ümid bir daha doğmayıb.

Qonşuların bilib ailədən gizlətdikləri o xəbər gecə saat 02:00-da ailəyə verilib. Hərbi komissarlıqdan gələn hərbçi və polis Aqilin şəhid olduğunu və səhər sübhdən nəşinin gətiriləcəyini deyiblər. Həmin an gecənin sükutun, göylərin bağrın Hicran ananın fəryadı yarıb. O gecə ərşə qalxan ana naləsindən cahan lərzəyə gəlib. O gecənin açılmayan səhərini Aqilin şəhid tabutu nurlandırıb. Həmin gün komandiri Azada bir kağız uzadıb minməli olduğu maşını göstərib. Lakin gedəcəyi ünvanın hara olduğunu deməyib. Azad da kağıza baxmayıb. Bir az yol getdikdən sonra Azad getdiyi istiqamətin döyüş zonası olmadığını, əksinə maşının Füzulidən çıxdığını görüb. Həmin an cibindən kağızı çıxarıb oxuyanda məzuniyyət icazəsi olduğunu görüb. Azad döyüş zamanı verilən bu məzuniyyətin əslində xeyirə əlamət olmadığının fərqində idi. Yol boyu "Elşad, yoxsa Aqil?" deyə sualları onun ürəyini didib, parçalayıb. Kimə zəng etsə də, heç kim həqiqəti deməyə cəsarət etməyib. Mənzil başına çatan zaman bacadan asılan bayrağı gördüyündə artıq bu evdə bir şəhid cənazəsinin olduğunu bilib. Ancaq kim? Elşad, yoxsa Aqil? Həmin an Elşada gözü sataşan Azad evinin şəhid qonağının Aqil olduğunu bilib.

Əkiz qardaş, iki sirdaş, iki hərbçi. Biri bayrağı köksünə sıxıb, birinin tabutunun üzərini "bəzəyib". Qardaşını deyil, qardaş tabutunu bağrına basan Azad hər kəsi göz yaşlarına qərq edib. Bir zamanlar bir bətndə var olan, həyatda qoşa addımlayan qardaşlar son dəfə eyni yolu gediblər. Ancaq bu dəfə Aqil Azadın çiyinlərində son yolun yolçusu kimi irəliləyib.

29 sentyabrda Tovuz rayon Tatlar kənd məzarlığında bir məzar bir ömrün bitiş nöqtəsinin ünvanı olub. Aqil cisminin dünyadan köçdüyü 4-cü gün varlığını yuxuda anasına hiss etdirib. Ana yuxuda "Aqil, cavan-cavan uşaqlar şəhid oldu" deyib. Aqil isə cavabında "Ana, onlar doğulandan şəhiddirlər" deyib. Yuxuda duyulan həmin qoxunu Hicran ana oyanarkən də duyub. Həmin an Aqilin ruhunun onun yanında olduğunu hiss edib.

Bir zamanlar oxuduğu kitablardan yiyələndiyi biliklərlə natiq bir gənc kimi tanınardı. İndi yazdığı qəhrəmanlıq dastanı ilə şəhid kimi tanınır Aqil. Leytenant Məcidov Aqil Aydın oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Azad Aqilin qisasını döyüş meydanında almaq üçün təkrar döyüşlərə qatılıb. Əsgər Məcidov Azad Aydın oğlu göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə" Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Zəngilanın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Aqil bu ailənin son şəhidi olmayıb. Aqilin qohumu Elməddin də vətən həsrəti bitdikdən sonra şəhadətə ucalıb. Vətən müharibəsi bitəndən sonra 2021-ci il iyunun 16-da azad olunan ərazidə möhkəmlənmə işləri aparan Azərbaycan Ordusunun zabiti baş leytenant Nəsibov Elməddin Süleyman oğlu Laçın rayonunun Cicimli kəndində xidməti vəzifəsini yerinə yetirərkən avtomobil qəzası nəticəsində şəhid olub.

***Manya Səxavətqızı***



# Ölümsüz ömür sahibi

***2002-ci ildə dağlar diyarı Yardımlı rayonunun Avşar kəndində dünyaya göz açan Mahmud Əflatun oğlu Mayıllının Vətən sevgisi Uca Tanrıdan gəlirdi. Elə İkinci Qarabağ müharibəsində 18 yaşında şəhidlik zirvəsinə onu ucaldan bu ilahi sevgi oldu.***

Həm də Mahmud çiçək ömrünü Vətəninə qurban verməklə dünya boyda ölümsüzlük qazandı. Bundan sonra illər keçəcək, qərinələr ötəcək bu Vətən sevdalısı milyonların qəlbində yaşamaqla, şərəfli həyat yolu gələn nəsillərə də örnək olacaqdır. Axı, Vətən, torpaq yolunda canını qurban verənlər göyün üzündə Günəşə dönüb ölümsüz ömür qazanırlar. Yardımlının mərd oğlu Mahmudda belə. Bu igidin ədədi həyat yoluna dövlət tərəfindən müharibə meydanında göstərdiyi şücaəti nəzərə alınaraq "Vətən uğrunda", Füzulinin, Xocavəndin azadlığına görə medalları da əlavə olundu...

Mahmud 2020-ci ili iyul ayında həqiqi hərbi xidmətə gedir. Torpağına-daşına ürəkdən vurulmaqla adına can dediyi doğma Azərbaycanın hər qarışını özünə müqəddəs bilir, onu canından üstün tutmaqla göz-bəbəyi kimi qoruyur. Təlimlərə isə 30 il əzəli, əbədi yurd yerimiz olan Qarabağ torpaqları əsarətdə saxlayan yağı düşmənə məqamı gələndə qan qusdurmaq amalı ilə qoşulur. Nəhayət ki, sentyabrın 27-də arzusu həyata keçir. Ermənistan hərbi birləşmələri cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərini, yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmasına cavab olaraq Ordumuz Ali Baş Komandanın əmri əsasında əks-hücuma keçir. Vətən müharibəsi başlanır. Əsgər Mahmud da torpağı Vətən edən qəhrəman oğullar cərgəsində odun-alovun içinə atılır. Və ən qaynar nöqtələrdə qələbəyə böyük ümid bəsləməklə əzmlə döyüşür, erməni dığalarına sarsıdıcı zərbələr endirir. Döyüşdən-döyüşə min əzablı, ölümlü yollar keçsə də Vətənə olan sevgisi bir an belə azalmır. Qəhrəman əsgər Mahmud Füzuli, Füzuli-Xocavənd istiqamətində gedən müharibə də göstərdiyi hünərlə əsl tarix yazır. Burada məhv etdiyi dığaların sayı bilinmir. Vuruşa-vuruşa son dəfə "Vətən" deyib canını ona qurban verir. ..

Bəli, Mahmud Mayıllı çox qısa, amma şərəfli bir ömür yaşadı. Odur ki, indi harada bir Günəş müqəddəsliyi var, onun sorağı oradan gələr. Heç bir zaman qəhrəmanlıq simvoluna dönən adı xalqın dilindən düşməz.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Türkiyədən Yunanıstana CAVAB

***"Yunanıstanın tez-tez ortaya atdığı həqiqətə uyğun olmayan ittihamlar iki ölkə arasındakı problemlərin həlli yolundakı səmimi və dürüst dialoq mühitinə kölgə salır".***

"Unikal" "Anadolu Ajans"a istinadən xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin (XİN) yaydığı məlumatda yer alıb.

"Sürmene Dünya Pontus Helenizmi Sarayı"nın tikinti planının açılış mərasimində yaxın tariximizlə bağlı səsləndirilən əsassız açıqlamalar Türkiyə tərəfindən təəssüflə qarşılanır. Bu iddialar Anadoluda işğalçının Yunanıstan olduğunu, yunan ordusunun xüsusilə Qərbi Anadoludakı günahsız insanlara qarşı vəhşilik etdiyi barədə həqiqətləri dəyişdirmir", - məlumatda bildirilib.

Qeyd olunub ki, Müttəfiq Dövlətlərin İstintaq Komissiyasının hesabatında da öz əksini tapan bu cinayətlərə görə, Lozanna Sülh Müqaviləsinin 59-cu maddəsinə uyğun olaraq, Yunanıstan öz əməlləri ilə vurduğu zərəri ödəməyə borcludur. Bildirilib ki, bu cür münasibət və davranışlar dövlət məmurlarından gözlənilən vəzifələrlə bir araya sığmır.

Türkiyə XİN bu kontekstdə qonşu olan Yunanıstanı bir daha sağlam düşüncəyə və konstruktiv anlaşmaya dəvət edib.

Xatırladaq ki, Yunanıstan Prezidenti Katerina Sakelaropulu Afinada inşa edilməsi planlaşdırılan "Sürmene Dünya Pontus Helenizmi Sarayı"nın tikinti planının təqdimat mərasimində Türkiyənin tarixi ilə bağlı birmənalı qarşılanmayan ifadələr işlədib.

# BMT Əfqanıstana yardım üçün vəsait toplayır

***BMT Əfqanıstana yardım çağırışı ilə beynəlxalq ictimaiyyətə müraciət edib. Sənəddə deyilir ki, yardım olmayacağı təqdirdə Əfqanıstan tarixinin ən ağır böhranı ilə üz-üzə qalacaq.***

Təşkilatın baş katibinin humanitar məsələlər üzrə müavini Martin Qriffits bildirib ki, Əfqanıstanda humanitar fəlakətin qarşısını almaq üçün 5 milyard dollar lazımdır. Onun sözlərinə görə, ölkənin 39 milyon sakinindən 22 milyonunun yardıma ehtiyacı var. Yığılacaq vəsait müvəqqəti yaşayış yerlərinin tikintisi, içməli su təchizatının bərpası, həmçinin xəstəliklər və səfalətlə mübarizəyə sərf ediləcək. Ekspertlər bu il Əfqanıstanın 4,7 milyon sakininin aclıqla üzləşəcəyini hesab edirlər.

ABŞ hökuməti artıq çağırışa reaksiya verib. Rəsmi Vaşinqton Əfqanıstana 300 milyon dollar vəsait ayıracağını bəyan edib. Söhbət ərzaq təminatı və səhiyyənin maliyyələşdirilməsindən gedir.

# Suriyada partlayış - 2 ölü, 7 yaralı

***Suriyanın İdlib şəhərindəki yanacaqdoldurma məntəqələrinin birində partlayış baş verib.***



"Unikal" xəbər verir ki, partlayış nəticəsində 2 nəfər ölüb, 7 nəfər yaralanıb.

Yaralılar xəstəxanaya çatdırılıb. Faktla bağlı araşdırma aparılır.

***Ağarza Elçinoğlu***

# Ermənistanı da "Qazaxıstan ssenarisi" gözləyir – TƏHLİL

## Yayda Paşinyan da KTMT-ni köməyə çağıra bilər

***Ermənistanın küçə iğtişaşları ilə hakimiyyətə gələn baş naziri Paşinyanın demokratik prinsiplərinə zidd olaraq tez-tələsik Qazaxstana 100 nəfərlik əzilmiş erməni əsgəri göndərməsinin altında yatan bəzi maraqlı məqamlara toxunmaq istəyirəm. Dünənə qədər KTMT Paşinyanı adam yerinə qoymur, Paşinyan isə KTMT-ni təşkilat saymırdı. Bəs belə bir "ermənisyağı boşanmadan" sonra nə baş verdi ki, Paşinyan KTMT-nin Qazaxstanla bağlı qərarında xüsusi canfəşanlıq göstərdi?***

Təşkilatın katibliyi mövcud olduğu halda, KTMT-nin bəyanatını şəxsən Paşinyanın səsləndirməsi yaltaqlıq və təlxəklikdən başqa bir şey deyildi. Qazaxıstan məsələsindən sonra Nikolun gələcəyə baxışlarında ciddi dəyişikliklərin olduğu aşkar görünür. Bunun səbəblərinə aydınlıq gətirək.

Paşinyan yaxşı bilir ki, gec-tez dəhlizlərin və kommunikasiyaların açılması, sərhədlərin təyin edilməsi, Qazaxın və Naxçıvanın kəndlərinin qaytarması baş verəcək. Sonunda sülh sazişinə də imza atmaqla Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən, Qarabağın Azərbaycana məxsus olduğunu təsdiq edəcək. Təbii ki, hakimiyyətdə qala bilsə. İmzaladığı bəyanatları xoşluqla və ya zorla yerinə yetirməsindən asılı olmayaraq, Paşinyanı bu il ölkə daxilində ciddi etiraz aksiyaları gözləyir.

Ermənistanda aksiyalar 14 aydır ki, müəyyən fasilələrlə davam edir, bunun iğtişaşlara çevrilməsi üçün ciddi səbəblər indi də mövcuddur, yazda isə gərginlik maksimuma çata bilər. Başqa sözlə desək, may-iyun aylarında Paşinyanın vəziyyəti yaxşı olmayacaq. Deməli, o da devrilmək təhlükəsini hiss edir və bunun qarşısını almaq məqsədilə KTMT-nin Qazaxstandakı "etirazçıları cəzalandırma əməliyyatları"na dəstək verməklə indidən özünə çığır açır.

Bu ehtimalı Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da təsdiqləyir. O, yerli İctimai Televiziyanın efirində belə bir açıqlama verib: "Ümid edirik ki, əgər Ermənistan gələcəkdə eyni vəziyyətə düşsə, o zaman bizə də KTMT tərəfindən lazımi kömək göstəriləcək". Nikol Paşinyanın Qazaxıstana niyə qoşun yeritdiyi bu açıqlamada açıq şəkildə etiraf olunur.

Deməli, Ermənistan baş naziri özünü kütləvi etiraz aksiyalarından sığortalamaq üçün Qazaxstana 100 nəfərlik əzilmiş-döyülmüş erməni əsgəri göndərib. Vətən Müharibəsi zamanı tankı-topu işlək vəziyyətdə döyüş meydanında qoyub, unitazı götürüb qaçan fərari erməni əsgərlərinin "Qazaxstana növbəti Xocalını yaşadacağıq" və ya qazax qadını haqqında alçaldıcı digər şüarlar ilə türk torpaqlarına yola salınması Tokayevin son günlərdə qazandığı "titullarını" bir daha təsdiqlədi. Qorxaq lider və onun şərəfdən yoxsul erməni qonaqlarının qazax xalqından layiq olduqları cavabı artıqlaması ilə alcaqlarına tam əminəm.

Hər zaman KTMT-nin NATO-ya alternativ kimi yaradılmasını iddia edənlər Belarus və Qazaxıstan hadisələrindən sonra anladılar ki, bu təşkilat heç də üzv dövlətləri xarici aqressiyadan qorumaq üçün yaradılmayıb. KTMT-nin indiyə qədər yerinə yetirdiyi əsas funksiya Rusiyanın maraqlarına xidmət edən üzv dövlətlərin rəhbərlərini hakimiyyətdə saxlamaqdan ibarət olub. Paşinyan da bunu anlayıb və ya ona anladıblar. Odur ki, Nikol əlinə düşən imkandan gələcəkdə öz maraqlarında maksimum yararlanmaq istəyir.

Əslində siyasətdə qanun və insanlığa zidd olmayan, həm də müsbət nəticə verə biləcək istənilən addım qəbulediləndir. Amma Paşinyanın addımlarının öz prisiplərinə zidd olduğunu sübut etmək üçün bir neçə epizodu xatırlatmaq yerinə düşər: Aprel hadisələri, Günnüt döyüşləri, Tovuz döyüşləri, Vətən Müharibəsi, Şuşa Bəyannaməsi, Bakı Bəyannaməsi; son 15 ayda Ermənistanın KTMT-yə 7 dəfə nəticəsiz müraciəti, keçən ilin may, iyun və dekabr aylarında Kəlbəcər, Laçın və Qarakilsə istiqmətində erməni əsgərinin mövqelərindən bəzən silah, bəzən isə isə şillə-təpik gücünə qovulması və s. Nikol, bu hadisələr baş verəndə KTMT harda idi?

KTMT indiyə qədər bir dəfə də olsun kənar müdaxiləyə qarşı çıxış etməyib. Deməli, Paşinyan və Qriqoryan artıq anlayıblar ki, bu təşkilat yalnız iğtişaşları yatırmaq və Kremlə dost rejimləri öz xalqından xilas etmək üçün yaradılıb. Məhz buna görə Paşinyan Azərbaycanı Qələbə və ərazi bütövlüyünün bərpası münasibətilə təbrikinə baxmayaraq, Tokayevi qazax xalqından xilas etmək üçün Qazaxıstana erməni hərbçilər göndərdi. Halbuki, Ermənistanın xüsusilə də son 14 ayda "xroniki hərbçi çatışmazlığından" əziyyət çəkdiyi kimsəyə sirr deyil.




Belə çıxır ki, Paşinyan gələcəkdə özünü və vəzifəsini erməni xalqından qorumaq üçün KTMT-yə "beh verir". Əgər oxşar hadisələr baş verərsə, ayağa qalxan erməni vətəndaşlar Qazaxıstandakı kimi "kənar müdaxilə" elan olunaraq, KTMT qüvvələrinin hədəfinə çevriləcəklər. Belə olan halda, "Rusiya, Ermənistandan çıx" və ya "Putin, əlini Ermənistandan çək" şüarlarının müəlliflərini nəyin gözlədiyini ehtimal etmək çətin deyil.

Erməni xalqından qorxduğunu aşkar ifadə edən hakimiyyət kimə və nə üçün lazımdır? Erməniləri kənar təhdidlərdən qorumaq lazım gələndə özünü görməzliyə vuran, amma onun özünə silah tuşlaması gözlənilən KTMT kimi hərbi blok İrəvana hansı dividendlər gətirə bilər? NATO blokundan belə fəaliyyət gözləmək mümkündürmü? Əgər erməni xalqı bu suallara cavab tapsa, hansı fəlakətlərlə qarşı-qarşıya olduğunu anlayacaq(azvision).

***Ədalət Verdiyev,***
***hərbi ekspert***

# Yığmamızın baş məqşçisi: "Bakıya dəvət etdik, amma gələ bilmədilər"



***"Rəsmi oyunlardan sonra yoldaşlıq matçını dekabrda keçirdik. Yəni komanda 8 aydan sonra yığışdı. Üstəlik, Ukrayna ilə oyuna az - 5 məşq keçib çıxmışdıq. Ona görə də boşluqların olması normaldır".***

Bunu futzal üzrə Azərbaycan millisinin baş məşqçisi Joze Alesio da Silva deyib.

Avropa çempionatının final mərhələsinə hazırlığını davam etdirən yığmamızın bugünkü məşqindən sonra da Silva brifinqi keçirib. Braziliyalı mütəxəssis bildirib ki, az məşq etdikdə səhvlərdən qaçmaq mümkün olmur: "Bunları nəzərə alsaq, Ukrayna ilə matçda səhvlərin olması anlaşılan idi. İndi isə Avropa çempionatına tam heyətlə hazırlaşırıq. Vaxtımız da əvvəlki toplanışla müqayisədə çoxdur. Komanda üçün hər cür şərait yaradılıb. Artıq 5 məşq keçmişik, qarşıda isə 3 məşqimiz var. Bazar günü Belçikaya yola düşəcəyik. Yekun heyəti də səfər ərəfəsində açıqlayacağıq. Bu ölkənin yığması ilə də yoldaşlıq matçında gücümüzü sınayacağıq".

Baş məşqçi bildirib ki, qitə birinciliyində ilk görüş çox vacibdir: "Birinci oyun finala bərabərdir. Gürcüstanla görüşdə qazanılacaq qələbə digər oyunlara hazırlaşmaq və növbəti addımlar atmaq baxımından vacib olacaq. Komandada atmosfer yaxşıdır. Fiziki baxımdan futzalçılar hazırdır. Ölkə xaricində çıxış edən oyunçularımız klublarında daim oynayırlar. Yerli çempionatdakı milli üzvləri isə yanvarın 5-dən fiziki hazırlıq keçiblər. Ciddi zədəsi olan futzalçımız yoxdur. Düzdür, bir neçə oyunçuda yüngül ağrılar var, amma bu, onlara məşq etməyə və oyun keçirməyə mane olmayacaq". Da Silva əlavə edib ki, ötən ilin sonlarında yoxlama görüşləri keçirmək istəsələr də, rəqib tapa bilməyiblər: "Oktyabr, noyabr aylarında qarşılaşmaq üçün rəqib tapa bilmədik. Pandemiya ilə əlaqədar danışıq apardığımız komandaların bir neçəsi imtina etdi. Elə ölkə oldu ki, Bakıya dəvət etdik, amma gələ bilmədilər. Buna rəğmən final mərhələsində daha yaxşı nəticə qazanmaq üçün çalışacağıq. Çünki heyətimizdə elə futzalçılar var ki, bu yarış onların karyerasında sonuncu olacaq".

# "Məqsədimiz Premyer Liqada oynamaqdır" - Acun

***"İngilis futgbolunu həmişə sevmişəm. Klub ala biləcək gücə çatanda İngiltərədə komanda sahibi olmaq qərarına gəldim. Bu, mənim xəyalım idi. Hansı klubun mənim üçün daha uyğun olacağını araşdırırdım".***



Bu sözləri TV8 kanalının rəhbəri, məşhur aparıcı Acun Ilıcalı "Hall Siti"ni alması barədə danışarkən deyib. O, "Daily Mail"ə müsahibəsində Premyer Liqada çıxış etmək istədiklərini bildirib: "Mən "Hall Siti"ni Premyer Liqada mübarizə apardıqları vaxtdan etibarən tanıyırdım. İngiltərəyə gedib, klubu yaxından görmək istədim. İyun ayında oraya gedəndə hər şeyin yaxşı olduğunu hiss etdim. Azarkeşləri və stadionu çox sevdim. Növbəti mövsümdən etibarən Premyer Liqada oynaya bilərik. Bu, bizim ilk hədəfimizdir. Əgər Premyer Liqada oynasaq, aşağı liqaya düşmək üçün əsas namizədlərdən olmayacağıq. Bizim məqsədimiz "Böyük 6-lıq"dakı komandaları sıxışdırmaq olacaq". "Hall Siti" "Lester Siti" kimi olmalıdır".

## "Qarabağ"dan 3-cü transfer

***"Qarabağ" daha bir futbolçunun transferini açıqlayıb.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, Ağdam klubu Leandro Andrade ilə müqavilə imzalayıb. Portuqaliyalı cinah yarımmüdafiəçisi Bolqarıstanın "Çerno More" klubundan transfer edilib. 22 yaşlı futbolçu ilə 2025-ci il iyunun 30-dək müqavilə bağlanılıb. Andrade "Qarabağ"da 15 nömrəli formada çıxış edəcək.

Qeyd edək ki, Premyer Liqanın lideri bunadək Rüstəm Əhmədzadə və Luka Quqeşaşvilini heyətinə qatıb.

## Pep Qvardiola: "Qalatasaray"a azarkeşlik edəcəyəm"



***"Torren çox önəmli və güclü taktika məşqçisidir".***

Bunu "Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola "Qalatasaray"ın yeni çalışdırıcısı Domenek Torren barədə danışarkən deyib.

İspaniyalı mütəxəssis "Barselona", "Bavariya" və "Mançester Siti"də köməkçiliyini etmiş Torrenin Türkiyə klubuna keçidini dəyərləndirib. Qvardiolanın fikrincə, "cim-bom" rəhbərliyi doğru seçim edib: "Domenek intizamı sevən, çalışqan mütəxəssisdir. Fikrimcə, o, "Qalatasaray" üçün doğru seçimdir. Bu komandanın oyunlarını mütləq izləyəcəyəm. Artıq mən də "Qalatasaray"a azarkeşlik edəcəyəm".

Qeyd edək ki, Fatih Terimlə yollarını ayıran "Qalatasaray" Domenek Torrenlə mövsümün sonuna qədər müqavilə imzalayıb.




## Argentinalı müdafiəçinin "Keşlə"yə dönüşü rəsmiləşdi

***"Keşlə" qış fasiləsində ikinci transferini açıqlayıb.***

"Unikal"ın klubun rəsmi saytına istinadən məlumatına görə, Franko Floresin keçidi rəsmiləşib.

29 yaşlı argentinalı futbolçu köhnə-yeni komandası ilə müqavilə imzalayıb. Anlaşmaya əsasən, mərkəz müdafiəçisi mövsümün sonuna qədər bakılıların formasını geyinəcək. Onun son klubu Hondurasın "Real Espana" olub olub.

Qeyd edək ki, Franko Flores 2019-cu ilin yayından 2020-ci ilin sonuna qədər "Keşlə"də çıxış edib. Paytaxt təmsilçisi ona qədər Fəhmin Muradbəylini "Neftçi"dən icarəyə götürüb.

## Klopp Salahı dəstəkləyir

***"Liverpul"un baş məşqçisi Yurgen Klopp futbolçusu Məhəmməd Salahla yeni müqavilə imzalamaq üçün aparılan danışıqlar barədə fikirlərini bölüşüb.***

Qol.az "The Guardian"a istinadən xəbər verir ki, 54 yaşlı mütəxəssis 29 yaşlı hücumçu ilə yeni sözləşməni yeniləyəcəkləri təqdirdə onun Premyer Liqada ən çox maaş alan futbolçu olacağını bildirib:

"Biz bilirik ki, Salah komandada qalmaq istəyir. Biz də belə olmasını istəyirik. Amma bu işlər vaxt aparır. Mən onu dəyişə bilmərəm. Amma məncə, hər şey qaydasındadır. "Liverpul"un sahibi ilə Salahın meneceri arasında yeni müqavilə ilə bağlı danışıqlar bu mövsümün startından əvvəl başlayıb. Yeni müqaviləyə əsasən, Salah İngiltərə Premyer Liqasının ən çox maaş alan futbolçusu ola bilər.

Əminəm ki, azarkeşlər sizin media işçiləri kimi əsəbi deyillər. Ancaq narahat olmaq üçün heç bir şey yoxdur. Bu, normal bir prosesdir. Salahın növbəti mövsüm üçün də qüvvədə olan müqaviləsi var. Heç kim narahat olmasın. Salah dünya səviyyəli oyunçudur. O, Liverpul üçün çox yaxşı işlər görüb. Təbii ki, biz Salahı saxlamaq istəyirik. Gəlin görək nə baş verəcək".

## "Zirə" "Peç"ə qarşı

***2021/22 mövsümünün ikinci yarısı üçün hazırlıq prosesini Antalyada davam etdirən "Zirə" bu gün yoxlama oyununa çıxacaq.***



Qol.az xəbər verir ki, komanda Macarıstan təmsilçisi "Peç" ilə qarşılaşacaq. Görüşə Bakı vaxtı ilə 17:00-da start veriləcək.

Qeyd edək ki, "Zirə" Antalyada daha 2 yoxlama oyunu keçirəcək. Paytaxt klubu yanvarın 20-də Polşanın "Qurnik"(Leçna), 24-də isə Şimali Makedoniyanın "Breqalniça" klubları ilə qarşılaşacaq. Komanda yanvarın 25-də Bakıya qayıdacaq.

**13 yanvar**

17:00. "Zirə" - "Peç" (Macarıstan)